Metodlar: Hidrogellərin hazırlanması: 100 mq PAT 50 ml deionlaşmış suda və ya etanolda tam həll edilir. Məhlula polimerin kütləsinin 5; 10; 15 və 20 % miqdarında tikici reagent - MBAA əlavə edilir və tam həll olana qədər qarışdırılma davam etdirilir. Homogen sistem əmələ gəldikdən sonra məhlul Petri qabına tökülür. Adi atmosfer təzyiqində məhlul həlledicidən azad edildikdən sonra nazik plyonkaya ultrabənövşəyi şüa vasitəsilə 6 saat müddətində fasiləsiz təsir edilir. Lampa ilə nümunələr arası məsafə 30 sm təşkil edilir və termometrlə temperatura (303 K) nəzarət etməklə məsafə tənzimlənir. Şüalanmadan sonra nümunələr əvvəlcə deionlaşmış su ilə, sonra isə 0.01 N HCl və etil spirti ilə iki-üç dəfə yuyulmaqla həm polimerin, həm də tikici reagentin tikilmə prosesində iştirak etməyən hissələrindən təmizlənir. Nümunələr adi atmosfer təzyiqində 313-323 K-də qurudulur və sabit çəkiyə gətirilir.

Absorbsiya təcrübələri: PAT əsaslı hidrogel ilə DOK-nin müxtəlif pH-larda, fizioloji və qlükoza məhlullarında sorbsiyası aparılmışdır: MBAA-in 5, 10, 15 və 20% (kütlə) nisbətində tikilməsindən alınan gellərdən 0.5 mq-ı 10 ml deionlaşmış suda 24 saat saxlanılır. Sonra 5 ml uyğun 1÷10 pH-lar əlavə edib 30 dəqiqə saxladıqdan sonra üzərlərinə 1 ml $\times 10^{-3}$ mol/l qatılıqlı DOK məhlululu əlavə yenidən 24 saat qapalı halda qaranlıq yerdə saxlanılır. Sonra məhlul süzülür, filtratda qalan antibiotikin qatılığı 510 nm oblastdakı optiki sıxlığını əvvəlcədən qurulmuş dərəcəli qrafik ilə muqayisə etməklə sorbsiyadan sonrakı qatılıq müəyyən edilir. Qatılıqlar fərqinə əsasən hidrogelin antibiotikə görə sorbsiya tutumu (ST, mq/qr) hesablanılır [29].

$$ST = \frac{C_{baş} - C_{son}}{g} \times V$$

Burada, V-sorbsiya aparılan məhlulun ümumi həcmi, ml ilə, g-isə sorbsiya üçün götürülən hidrogelin mq-larla ifadəsidir.

DOK-nin qatılığından asılı olaraaq sorbsiya izotermlərini [30] öyrənmək üçün pH=8-də maksimum şişmə və sorbsiya dərəcəsi, həmçinin sorbsiya tutumu göstərən 10% MBAA ilə tikilən 0.05 qr PAT-dan istifadə olunmuşdur. Antibiotikin qatılığı 0.01, 0.02, 0.03, 0.05, 0.1, 0.2, 0.3 və 0.5 mq/l intervalında dəyişdirməklə sabit temperaturda statik şəraitdə sorbsiya prosesləri araşdırılmışdır.

Quruluş analizləri: Poliakril turşusu və PAT əsasında sintez olunmuş hidrogellərin funksional qrupları SHIMADZU IR Furye çevrilməyə malik infra qırmızı (IQ) (FTİR) spektroskopiya üsulu vasitəsilə tətqiq olunmuşdur. FTİR spektrlər KBr diskləri vasitəsilə alınmışdır və 4000-

400 cm^{-1} spektral aralıqda çəkilmişdir. Plyonka rentgenstruktur analiz üçün şüşə qabda qurudulmuşdur. Tikilmiş PAT-nun kristallaşma prosesi rentgen-faza analizi(RFA) vasitəsilə öyrənilmişdir. Rentgen şüaları vasitəsilə difraksiyanın öyrənilməsi Advance A-8 vasitəsilə (CuKα ilə λ=1.5406 Å şüalanma) otaq temperaturunda aparılmışdır. PAT əsaslı hidrogel və DOK arasında funksional qrupların qarşılıqlı təsir formasını müəyyən etmək üçün ultra-bənövşəyi (UB) (UV-VIS 1800, SHIMADZU) spektroskopiya, skanedici elektron mikroskopiya (SEM), üsullarından istifadə olunmuşdur.

Nəticə və müzakirələr: PAT-nun MBAA ilə tikilmə prosesinin həqiqətən baş verməsini müəyyənləşdirmək üçün tikilmiş və tikilməmiş polimerin SEM üsulu ilə tədqiqatı aparılmışdır. Müəyyən olunmuşdur ki, tikilməmiş poliakril turşusunun quruluşunda qeyri-bircins müxtəlif fazalı ağ ləkələr və məsamələr var. Şəkil 1-də tikilməmiş PAT və polimerin 10% nisbətində MBAA-lə tikilməsindən alınan PAT əsaslı hidrogelin quruluşu verilmişdir.

Şəkil 1. PAT *(a)* və 10% MBAA ilə tikilmiş PAT əsaslı hidrogeln *(b)* SEM spektrləri



a *b*

Polimer tikildikdən sonra bu məsamələr itir və polimerdə hamarlaşma müşahidə olunur. Tikilmiş poliakril turşusunda struktur dənəvərləşməsi əmələ gəlir, bununla da polimer sanki hissələrə parçalanır və daha qeyri-bircins səth müşahidə olunur. Tikilmiş polimerdə bir sıra qatlar, təbəqələr şəklində xətlər vardır ki, bu da tikilmənin baş verməsini göstərir.

Homopolimerin tikilməsinin ehtimal olunan mexanizmi aşağıdakı sxemdə verilmişdir:



PAT, MBAA və alınan hidrogellərin tərkibindəki funksional qruplara məxsus udma zolaqlarının İQ- və UB spektroskopiya üsulları ilə analizindən müəyyən edilmişdir ki, polimerin tikilməsi polimerin əsas zəncirindəki ikili karbon ilə MBAA-in tərkibindəki üçlü karbonun yaxınlaşması və proses zamanı alınan radikalların rekombinasiyası hesabına baş verir.

Hidrogellərdən daşıyıcı kimi istifadə olunduqda onların quruluşuna, funksional qrupların ionlaşma dərəcəsinə və immobilizə olunan bioloji aktiv maddənin hansı mühitdə təsir göstərməsinə səbəb olacaq əsas amillərdən biri də mühitin pH-dır. Bu baxımdan sintez olunmuş PAT əsaslı gellərin şişmə dərəcəsinin mühitin pH-dan asılılığı tədqiq olunmuşdur (Cədvəl 1). Müəyyən olunmuşdur ki, PAT-nun 5÷10% MBAA ilə tikilməsindən alınan gellərin maksimum şişmə dərəcəsi pH=10-də olub, ~600-700% təşkil edir. Göstərilmişdir ki, təbiət etibarı ilə turşu xassəli olan PAT-nun 5, 10, 15 və 20% (kütlə) miqdarında MBAA tikilməsindən alınan gellər qələvi mühitdə (pH=10) maksimum şişmə dərəcəsi göstərirlər.

Cədvəl 1. Müxtəlif % nisbətlərində tikilmiş poliakril turşusunun şişmə dərəcəsinin mühitin pH-dan asılılıq qiymətləri

pH	W,%. 5%	W,%,10%	W,%,15%	W,%,20%
1	132	159	112	91
2	167	187	154	112
3	246	278	228	209
4	291	321	276	233
5	394	426	373	347
6	457	492	429	408
7	481	502	441	416
8	533	568	516	471
9	574	607	538	512
10	690	746	652	618

Cədvəl 1-dən göründüyü kimi tikici reagentin miqdarı artdıqca əmələ gələn hidrogellərdə torların sahəsi azaldıqca su molekullarının daxilə diffuziyası çətinləşir və nəticədə şişmə dərəcəsi də azalır. Müəyyən olunmuşdur aşağı pH-larda funksional qrupun protonlaşması su molekulları ilə >C=O qrupu arasında hidrogen rabitəsinin əmələ gəlməsinə maneçilik törətdiyindən hidrogel kollaps əmələ gətirir. Qələvi mühitə keçdikcə deprotonlaşmanın baş verməsi isə hidrogelin şişmə dərəcəsinin tədricən artmasına gətirib çıxarır.

RFA tədqiqat üsulları ilə tədqiq olunmuşdur ki, amorf quruluşa malik PAT MBAA ilə tikildikdən sonra quruluşda cüzi dəyişiklik baş verir (şəkil 2).

Şəkil 2. Müxtəlif % nisbətlərində MBAA ilə tikilmiş PAT-nun RF spektrləri



Belə ki, MBAA-in miqdarı artdıqca alınan hidrogelin kristallıq dərəcəsində 8-12% artım baş verir. Bunu tikilmə nəticəsində nisbətən daha nizamlı quruluşa malik polimer-torların əmələ gəlməsi ilə izah etmək olar.

Məlumdur ki, sulu məhlullardan absorbentin üzvi və qeyri-üzvi ionları sorbsiya etməsinə təsir edən başlıca faktor mühitin pH-dır. Çünki məhlulda olan H^+ və OH^- ionları absorbentin başqa sözlə hidrogelin səthinin və həcminin yüklənməsinə, yəni ionlaşmasına səbəb olur ki, bu da sorbatın hidrogelin sorbsiya tutumuna bilavasitə təsir göstərir [31]. Bu nöqteyi nəzərdən PAT-nun 5÷20% MBAA ilə tikilməsindən alınan hidrogellərin statik şəraitdə DOK ilə pH=1÷10 intervalında 24 saat ərzində (qapalı qapda, qaranlıq) sorbsiyası aparılmış və nəticələriPAT-nun DOK-nə görə sorbsiya tutumlarının mühitin pH-dan asılılıq qiymətlərinicədvəl 2-də görmək olar.

Cədvəl 2. Müxtəlif % nisbətlərində MBAA ilə tikilmiş PAT əsaslı gelin DOK-nə görə sorbsiya tutumlarının mühitin pH-dan asılılığı.

pH	Sorbsiya tutumu, mg/gr			
	5% MBAA	10% MBAA	15% MBAA	20% MBAA
1	0,67	1,57	0,1	0,7
2	1,47	3,45	2,27	1,63
3	3,58	5,8	4,7	3,45
4	5,05	6,72	5,88	5,18
5	6,9	8,25	7,74	6,81
6	10,5	11,9	11,23	8,76
7	11,74	13,05	12,51	11,26
8	13,47	14,11	13,63	12,64
9	12,51	13,47	13,02	11,65
10	9,63	11,9	5,08	10,01

Cədvəl 2-dən göründüyü kimi hidrogelin tərkibində tikici reagentin miqdarı artdıqca sorbsiya tutumu azalır. Müəyyən olunmuşdur ki, 10% MBAA iştirakında tikilmiş PAT əsaslı hidrogelin pH=8-də DOK-nə sorbsiya tutumu 14.12 mq/qr olduğu halda 20% MBAA ilə tikilmiş polimerdə isə 12.64 mq/qr təşkil edir. Bunu tikici reagentin miqdarı artdıqca aktiv funksional qrupların qatılığının yüksəlməsinə baxmayaraq hidrogelin tərkibndə məsamələrin ölçüsünün azalması ilə izah etmək olar. 5 və 10% MBAA iştirakında alınan hidrogelləri müqayisə etdikdə isə 10% tikici reagent ilə alınan hidrogellərin daxili torlarının ölçüsünün DOK molekulu üçün fəza cəhətdən və konformosion olaraq daha münasib yaxud optimal olması ilə əlaqədardır. Bu hal antibiotik molekulunu gelin məsamələrində daha stabil və dayanıqlı qalmasını təmin edir. Ancaq 5% MBAA ilə tikilən polimerdə isə gel əmələ gətirmək xassəsinin tam olmaması, məsamələrin ölçüsünün həddindən artıq böyük olması və tikici reagentin tərkibindəki aktiv funksional qrupların miqdarının götürülən DOK qatılığı üçün yetərli qədər olmaması gelin sorbsiya tutumunun az olmasına səbəb olur [32,33]. Antibiotik molekulunun kifayət qədər funksional qruplarla əhatə olunmaması gel daxilində onun stabil olmamasına gətirib çıxarır.

Tədqiqat zamanı 10% MBAA ilə tikilmiş PAT-nun 50 mq ilə pH=8-də DOK-nin 0.01÷0.5 mq/l qatılıq intervalında 293 K-də sorbsiya prosesi öyrənilmişdir (cədvəl 3).

Cədvəl 3. 10% tikilmiş poliakril turşusu əsaslı gelin doksorubisinə görə sorbsiya tutumu və sorbsiya dərəcəsinin antibiotikin başlanğıc qatılığından asılılıq əyriləri

C, mg/L×0,1	Sorbsiya dərəcəsi, %	Sorbsiya tutumu, mg/gr
0,1	86	3
0,2	85	5
0,3	65	6

0,5	88	14
1	51	16
2	27	17
3	18	21
5	13	22

Göründüyü kimi DOK-nin qatılığını 0.01 mq/l-dən 0.5 mq/l-ə qədər artırdıqda sorbsiya dərəcəsi uyğun olaraq 86%-dən 14%-ə qədər azalır. Bu hidrogelin götürülən miqdarının sabit qiymətində antibiotikin qatılığının artması və tarazlıq halının yaranması ilə əlaqədardır. Məlumdur ki, gel, tərkibindəki funksional qrupların ekvivalent miqdarına uyğun DOK absorbsiya edəcək və antibiotikin qatılığının hansı qiymətində sorbsiya tarazlığı yaranacaqsa bu həmin tikilmə dərəcəsi də hidrogel üçün optimal sayılır. Eyni zamanda sorbsiya tarazlığı gelin məsamələrinə absorbsiya olunan DOK-nin miqdarı ilə məhlulda qalan miqdarı arasında yaranan tarazlıq sabitinin qiyməti də bu prosesə təsir edir. Müəyyən olunmuşdur ki, DOK-nin 0.05 mq/l qatılıq qiymətində sorbsiya dərəcəsi maksimum olub 88%-ə bərabərdir. Məhlulda DOK-nin qatılığı artdıqca gelin tərkibində funksional qruplar sorbsiyanın daha artıq baş verməsinə kifayət etmədiyindən DOK-nin qatılığının sonrakı artımlarında sorbsiya tutumunun qiyməti də sabitləşir [34,35]. Qatılığın 0.02 mq/l qiymətindən sonra həm sorbsiya tutumu, həm də sorbsiya dərəcəsi sabitləşir. Qatılığın 0.3-0.5 mq/l qiymətində sorbsiya tutumunun 20-21 mq/qr olmasına baxmayaraq sorbsiya dərəcəsi 15-18% təşkil edir. Bu baxımdan 10%MBAA ilə tikilmiş 0.05 qr PAT əsaslı gel DOK ilə 293 K-də 24 saat müddətində 0.05-0.1 mq/l qatılıqlı başlanğıc məhlulları sorbsiya üçün optimal və stabil qəbul edilə bilər.

Polimerin 10 % nisbətində MBAA ilə tikilmiş PAT əsaslı hidrogel və onun doksorubisinlə kom-ponentinin quruluşu SEM spektroskopiya üsulu ilə öyrənilmişdir. (Şəkil 3).

Şəkil 3. 10 % nisbətində tikilmiş PAT (*a*) və DOK əlavə etdikdən sonra PAT (*b*)



a *b*

PAT-DOK komponentinin quruluşunda tikilməmiş polimerdə olan məsamələr görünmür və sanki polimerdə parçalanmış hissələr sıxılıb böyüyür. Eyni zamanda ölçüləri 1,2 mikrondan 2,2 mikrona qədər hissəciklər müşahidə olunur və PAT-DOK strukturunda sınmalar, kələ-kötürlük əmələ gəlir.

Nəticə

Orta molekul kütləsi 230 kDa olan PAT-nun 5÷20 % (kütlə) nisbətində MBAA-lə ultrabənövşəyi şüa iştirakında tikilməsindən suda, pH bufer məhlullarında şişə bilən hidrogellər sintez olunmuşdur. Alınmış hidrogellərin quruluşları fiziki tədqiqat üsulları ilə öyrənilmiş və göstəril-

mişdir ki, alınan hidrogel doksorubisin antibiotikini 0.05-0.1 mq/l qatılıq həddində pH=8-də maksimum sorbsiya edir. Otaq temperaturunda 24 saat statik şəraitdə DOK-nin sorbsiya tutumu 18-21 mq/qr təşkil edr.Tərkibində 2% (1 qr) DOK saxlayan kompozitlərdən tibbdə, biotexnologiyda qeyd olunan antibiotikin daşınmasında, uzun müddətli təsirə malik effektiv preparat kimi istifadə etmək olar [36].

ƏDƏBİYYAT SİYAHISI

1. K. Shimizu, H. Fujita, E. Nagamori.*Oxygen plasma-treated thermo responsive polymer surfaces for cell sheet engineering*,**Biotechnol. Bioeng**,No.106, p.303-310,2010
2. B.R. Twaites, C.D.H. Alarcon, M. Lavigne, A. Saulnier, S.S. Pennadam, D. Cunliffe, D.C. Gorecki. C. Alexander.*Thermoresponsive polymers as gene delivery vectors: Cellviability, DNA transport and transfection studie*,**J. Control. Release**,No.108, p.472-483, 2005
3. K.B. Doorty, T.A. Golubeva, A.V. Gorelov, Y.A. Rochev, L.T. Allen, K.A. Dawson, W.M. Gallagher, A.K. Keenan.*Poly(N-isopropylacrylamide) co-polymer films as potential vehicles for delivery of an antimitotic agent to vascular smooth muscle cells*,**Cardiovasc. Pathol,**No.12, p.105-110, 2003
4. R.A. Stile,K.E. Healy.*Thermo-responsive peptide-modified hydrogels for tissue regeneration*,**Biomacromolecules**,No.2, p.185-194, 2001
5. A.W. Mark and K.G. Theoni.*Thermoresponsive Polymers for Biomedical Applications*,**Polymers,**No.3, p.1215-1242, 2011
6. K. Kamath, K. Park.*Biodegradable hydrogels in drug delivery*,**Adv. Drug Deliv. Rev,**No.11, p.59–84, 1993
7. K. Park, W.S.W. Shalaby, H. Park.*Biodegradable hydrogels for drug deliver.* Technomic Publishing Co, **Lancaster,** 1993
8. Y. Qiu, K. Park.*Environment-sensitive hydrogels for drug delivery*,**Advanced Drug Delivery Reviews,**No.53, p.321–339,2001
9. J. Jagur-Grodzinski.*Polymeric gels and hydrogels for biomedical and pharmaceutical applications*, **Polymers for Advanced Technologies**,Vol.1. No.121, p.27-47, 2010
10. K. Pal, A.K. Banthia and D.K. Majumda.*Polymeric hydrogels: characterization and biomedical applications – A mini review*,**Designed Monomers and Polymers,**Vol. 3, No.12,p.197-220, 2009
11. A.S. Hoffman.*Hydrogels for biomedical applications*,**Advanced Drug Delivery Reviews,**Vol.1, No.54, p.3-12, 2002
12. S.I. Stojanović, L. Nikolić, V. Nikolić, S. Petrović, M. Stanković, I.M. Ranisavljević.*Stimuli-sensitive hydrogels for pharmaceutical and medical applications*,**Physics, Chemistry and Technology,**Vol.9, No.1, p.37 – 56, 2011
13. R. López-Cebral, P. Paolicelli, V. Romero-Caamaño, B. Seijo, M.A. Casadei, A. Sanchez.*Spermidine-cross-linked hydrogels as novel potential platforms for pharmaceutical applications*,**J. Pharm. Sci.**, Vol.8. No.102, p.2632-43,2013
14. A.S. Hoffman.*Hydrogels for biomedical applications*,**Adv. Drug Deliver. Rev.,** Vol.1, No.43, p.3–12,2002
15. H. Vihola, A. Laukkanen, L. Valtola, H. Tenhu, J. Hirvonen.*Cytotoxicity of thermosensitive polymers poly (N-isopropylacrylamide), poly(N-vinylcaprolactam) and amphiphilically modified poly (N-vinylcaprolactam)*,**Biomaterials**, Vol.16, No.26, p.3055–3064,2005
16. T. Hussain, M. Ansari, N.M. Ranjha, I.U. Khan, Y. Shahzad.*Chemically cross-linked poly(acrylic-co-vinylsulfonic) acid hydrogel for the delivery of isosorbidemononitrate*,**Scientific World Journal,**No.23, p.340-737,2013
17. E.S. Abdel-Halim, S.S. Al-Deyab, *Hydrogel from crosslinked polyacrylamide/guar gum graft copolymer for sorption of hexavalent chromium ion*,**Carbohydrate Polymers**, Vol.86, No.3,p.1306–1312,2011
18. K.T. Nguyen, J.L. West.*Photopolymerizable hydrogels for tissue engineering applications*,**Biomaterial**,No.23, p.4307- 4314,2002
19. Z. Mohamadnia, M.J. Zohuriaan-Mehr, K. Kabiri, A. Jamshidi, H. Mobedi.*pH-sensitive IPN hydrogel beads of carrageenan-alginate for controlled drug delivery*,**J.Bioact.Compat.Polym.,**No.22, p.342-356,2007
20. M. Liu, H. Su, T. Tan.*Synthesis and properties of thermo and pH-sensitive poly(N-isopropylacrylamide) /polyaspartic acid IPN hydrogels*,**Carbohydr.Polym**., No.87, p.2425-2431, 2012

21. S. Lu, M. Liu, B. Ni, C. Gao.*A novel pH- and thermo-sensitive PVP/CMC semi-IPN hydrogel: Swelling, phase behavior, and drug release study,***J.Polym. Sci. Part B: Polym Phys.**, No. 48, p.1749-1756, 2010
22. Y.Z. Wang, F. He, and R.X. Zhuo. *Synthesis and Characterization of Amphiphilic Block Copolymer Containing PVP and Poly(5-benzyloxytrimethylene carbonate),***Chinese Chemical Letters**,Vol.2, No.17, p.239-242, 2006
23. V.V. Korshak, M.I. Shitilman. *Polymers in processe immobilization and modification of nature compounds.***Book**, Moscow, 1984
24. S. Aryal, M. Prabaharan, S. Pilla, S. Gong.*Biodegradable and biocompatible multi-arm star amphilic block copolymer as a carrier for hydrophobic drug delivery,***Int. J. Biol. Macromol.,**Vol.44, p.346-352, 2009
25. C. Cuvier, T.L. Roblot, J.M. Millot, et al. *Doxorubicin-loaded nanospheres by pass tumor cell multidrug resistance,* **Biochem.Pharmacol.**Vol.4, No.3, p.509-517, 1992
26. J. Chen, J. Ouyang, J. Kong, W. Zhong, M.M. Xing.*Photo-cross-linked and pH-sensitive biodegradable micelles for doxorubicin delivery,***ACS Appl. Mater. Interfaces.,** Vol.8, No.5, p.3108–3117, 2013
27. S. Saman, B. Aboulfazl, D. Reza, A.F. Mohammad.*Antibiotic release process from hydrogel nano zeolite composites,***Middle-East Journal of Scientific Research**,Vol.12,No.3, p.392-396, 2012
28. А.А. Ханнанов, О.В. Бондарь, А.В. Сурнова, М.П. Кутырева etc. *Совместныеагрегатыдоксорубицинасмодифицированнымиполиэфирополиолами*, **Студенческийнаучныйжурнал,**Т.1, с.73-78, 2013 (A.A.Khannanov, O.V. Bondar, A.V. Surnova, M.P. Kutireva. *Sovmestnieagregatidoxorubicina s modifisirovannimipoliefiropoliolami,***Studencheskiynauchniyjurnal,** Vol,1, p.73-78.)
29. И.В. Полякова, А.Ю. Тощевикова, etc. *Динамика сорбции антибактериального антибиотика эромомицинанакарбоксильном катионите*, **Структура и динамика молекулярных систем,** No.2, с.173-175, 2003 (I.V.Polyakova, A.Y. Toshevikova. *DinamicaSorbsiiantibacterialnogo antibiotic eromomicinanacarboksilnomcationite,***Structura I dinamicamoleculyarnix system,**No.2, p.173-175, 2003*)*
30. A. Reem Al-Bayati. *Adsorption – Desorption of Trimethoprim Antibiotic Drug from Aqueous Solution by Two Different Natural Occurring Adsorbents*, **International Journal of Chemistry**, Vol.3, No. 3, p.21-30,2011
31. J.H. Beijnen, G. Wiese, W.J. Under-berg. *Aspects of the chemical stability of doxorubicin and seven other anthracyclines in acidic solution,* **Pharm.Weekbl. Sci.,** Vol. 21, No.7, p.109-116, 1985
32. W,bShaoling, Z. Xindong, L. Yanhui etc.*Adsorption of doxorubicin hydrochloride onto grapheme oxide:equilibrium, kinetic and thermodynamic studies,***Materials**,Vol.6, p.2026-2042, 2013
33. C.J. Lee, J.S. Kang, M.S. Kim, K.P. Lee, and M.S. Lee. *The Study of Doxorubicin and its Complex with DNA by SERS and UV-resonance Raman Spectroscopy*, **Bull. of the Korean Chemical Society.**, Vol.8, No.25, p.1211-1216, 2004
34. L.I. Valuev, T.A. Valueva, N.A. Plate.*Polymer system for controller separation biological active compounds,***Uspexibiologicheskayakhimiya,**No.43, p.307-328,2003
35. K. Petrusevska, M.A. Kuznetsov, K. Gedicke, V. Meshko,S.M. Staroverov.*A Seidel-Morgenstern Chromatographic enantioseparation of amino acids using a new chiral stationary phase based on a macrocyclicglycopeptide antibiotic,***J, Sep.Sei.,** Vol.29, p.1447- 1457, 2006
36. Sh.Z. Tapdigov, S.M. Mammadova, N.A. Zeynalov.*Spectroscopic Investigated Interaction between Silver Nanocomposites Based of Poly-N-Vinylpyrrolidone and Doxorubicin for Drug Delivering,***J.Chemistry&Chemical Engineering,** No.8, p.800-804, 2014

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY
2017. Volume 1, Number 1 Pages 44-50

UOT 547.425:547.464:547.569

FENOLUN КУ-23 KATALİZATORUNUN İŞTİRAKINDA PİROLİZ PROSESİNİN C_4- FRAKSİYASININ DİMERLƏŞMƏ MƏHSULLARI İLƏ ALKİLLƏŞMƏ REAKSİYALARI

V.H. MİRZƏYEV

Azərbaycan MEA Neft-Kimya Prosesləri İnstitutu

Bakı / AZƏRBAYCAN

Turall110@mail.ru

XÜLASƏ

Fenolun КУ-23 katalizatoru iştirakında aşağı oktanlı benzinlərin pirolizi prosesində alınan divinilsizləşdirilmiş C_4-fraksiyasının dimerləşmə məhsulları ilə alkilləşmə reaksiyaları tədqiq olunmuşdur.Alkilləşmə reaksiyaları fasiləsiz işləyən mini qurğuda həyata keçirilmişdir. Alkilləşmə reaksiyası nəticəsində məqsədli məh-sulun çıxımına və seçiciliyinə tempera-turun, ilkin komponentlərin mol nisbətlərinin və həcmi sürətin təsiri araş-dırılmışdır. Tədqiqat nəticə-sində müəyyən edilmişdir ki, fenolun fasiləsiz işləyən mini qurğuda piroliz prosesinin C_4-fraksiyasının dimerləşmə məhsulları ilə КУ-23 katalizatoru iştirakında alkilləşmə reaksiyasının aşağıda göstə-rilən şəraitində: temperatur 120°C, fenolun fraksiyaya 1:2 mol nisbətin-də, həcmi sürətin 0.5 saat qiymətində məq-sədli məhsulun çıxımı götürülən fenola görə 67.4%, seçicilik isə məqsədli məhsula görə 95.6% olur. Sintez olun-muş para-alkilfenolun formaldehid və anilinlə(2,6-diizopropilanilinlə) aminometilləşmə reaksiyaları aparılaraq Mannix əsasları alınmışdır. Alınmış 2-hidroksi-5-alkil-benzilfenilaminlər dizel yanacağında antioksidant kimi yoxlanılmışdır. Sınaqlar nəticəsində məlum antioksidantlardan fərqli təqdim olunan benzilfenilaminlərin dizel yanacağına əlavə olunduqda oksidləşmədən sonra çöküntü əmələ qəlmədiyi müəyyən edilmişdir.

Açar sözlər: fenol, C_4-fraksiyasının dimerləşmə məhsulları, alkilləşmə, çıxım, seç-icilik, n-alkilfenol, formaldehid, anilin, aminometilləşmə, Mannix əsasları, antioksidant

РЕАКЦИИ АЛКИЛИРОВАНИЯ ФЕНОЛА С ПРОДУКТАМИ ДИМЕРИЗАЦИИ C_4-ФРАКЦИИ ПРОЦЕССА ПИРОЛИЗА В ПРИСУТСТВИИ КАТАЛИЗАТОРА КУ-23

РЕЗЮМЕ

Были исследованы реакции алкилирования фенола в присутствии катализатора КУ-23 с продук-тами димеризации C_4-фракции (после выделения дивинила), полученного в процессе пиролиза низкоок-тановых бензинов. Реакции алкилирования осуществлялись в непрерывно действующей мини установке. В результате реакции алкилирования было выявлено действие температуры, мольного соотношения пер-вичных компонентов и объемной скорости на выход и селективность целевого продукта. В результате ис-следования было установлено, что при ниже следующих условиях реакции алкилирования фенола с про-дуктами димеризации процесса пиролиза C_4-фракции в непрерывно действующей мини установке в при-сутствии катализатора КУ-23: температуры 120°C, соотношении фенола к фракции 1:2 моль, объемной скорости 0.5 часов выход целевого продукта по отношению к взятому фенолу составляет 67.4%, а селектив-ность по це-левому продукту 95.6%. В результате проведения реакций аминометилирования синтезирован- ного пара-алкилфенола с формальдегидом и анилином (2.6-диизопропиланилин) были получены основа-ния Манниха. Полученные 2-гидрокси-5-алкилбензилфениламины прошли испытание как антиоксиданты в дизельном топливе. В результате испытаний было выявлено, что в отличие от известных антиоксидантов при добавле-нии этих бензилфениламинов в дизельное топливо после окисления не образуется осадок.

Ключевые слова: фенол, продукты димеризации C_4-фракции, алкилирование, выход, селектив-ность, п-алкилфенол, формальдегид, анилин, аминометилирование, основания Манниха, антиоксидант.

THE ALKYLATION REACTION OF PHENOL WITH DIMER PRODUCTS OF FRACTION OF PYROLYSIS PROCESS IN THE PRESENCE OF КУ-23 CATALYST

ABSTRACT

It was investigated that the alkylation reaction of phenol with the dimer products without divinyl of fraction of pyrolysis process of low-octane petrol in the presence of КУ-23 catalyst. The alkylation reactions were accomplished by using continuous small devices.The effect of temperature, mol ratio of reactants and space velocity to the yield

and selectivity of desired products in the alkylation reactions was studied. According to researches, it was determined that, the alkylation reaction of phenol with the dimer products of C_4 fraction of pyrolysis process in the presence of КУ-23 in catalyst continuous small devices in the given below conditions: temperature 120°C, the mole ratio phenol to fraction 1:2, space velocity 0,5 hour ,the percentage *yield* of desired products on phenol was 67.4%, selec tivity on desired product was 95.6% . Mannich base was produced from the aminomethylation reaction of the synthesized para-alkylphenol with formaldehyde and aniline (2,6-disiopropylaniline). The obtained 2-hydroxy-5-alkyl-benzylphenilamines were tested as antioxidant additives to diesel fuel . As the results of tests, unlike known antioxidants, it was identified that there was no precipitates formation after oxidation when benzylphenylamines were added to diesel fuel .

Keywords: phenol, dimerization products of C_4-fraction, alkylation, yield, selectivity, n-alkylphenol, formaldehyde, aniline, aminomethylation, Mannich bases, antioxidant.

Giriş

Polimer materiallara, yağlara və yanacaqlara əlavə olunan antioksidantlar, aşqarlar, stabilizatorlar və s. kimyəvi əlavələr içərisində alkilfenollar əsasında alınmış kimyəvi birləş-mələr xüsusi yer tutur. Onlar poliolefinlərin rəngini dəyişmir, yüksək temperatura davam-lıdırlar, yağlarda və yanacaqlarda yaxşı həll olurlar.

Təsadüfi deyil ki, hazırda sənayedə istifadə olunan kimyəvi əlavələrin 70-75%-i alkil-fenollar əsasında alınır [1-7].

İstifadə olunan alkilfenolların əksəriyyəti fenolun polimerdistillat ilə alkilləşməsin-dən alınır. Son vaxtlar polimerdistillatın istifadəsi başqa səmtə yönəldiyindən (polimerdis-tillat destruksiyaya uğradılaraq benzinə komponent kimi istifad olunur) fenolun alkilləşmə reak-siyaları sahəsində alkilləşdirici agent qıtlığı yaranmışdır.

Təqdim olunan məqalədə fenolun КУ-23 katalizatoru iştirakında aşağı oktanlı ben-zinlərin pirolizi prosesində alınan divinilsizləşdirilmiş C_4-fraksiyasının dimerləşmə məhsul-larının 105-190°C farksiyası (İDMF) ilə alkilləşmə reaksiyalarının tədqiqindən, alınmış para-alkil (C_{8-12})-fenolun formaldehid və anilinlə (2,6-diizopropilanilinlə) qarşılıqlı təsirindən Mannix əsaslarının alınıb dizel yanacağında antioksi-dant kimi sınaqdan çıxarılmasından bəhs edilir.

Təcrübi hissə

Təcrübələrin aparılması üçün ilkin xammal kimi fenoldan, İDMF-dan, anilindən, 2,6-diizopropilanilindən, formaldehiddən istifadə edilmişdir.

Fenol və anilin istifadən qabaq qovularaq istifadə olunmuşdur.

Fenol ilə alkilləşdirici agent kimi aşağı oktanlı benzinin pirolizi prosesində alınan divinilsizləş-dirilmiş C_4-fraksiyasından (BİF) istifadə edilmişdir. BİF-nın seolit katalizatoru üzərində dimerləşməsindən 40.5% izobutilenin oliqomerləri alınır.

İlkin xammalda izobutilenin dimerinin və trimerinin qatılığını artırmaq məqsədilə alkilləşmə reaksiyaları üçün izobutilenın oliqomerlərinin 105-190°C fraksiyasından istifadə edilmişdir.

BİF-nın dimerləşmə məhsullarının və İDMF-nın karbohidrogen tərkibləri 1 saylı cədvəldə verilir.

Cədvəl 1. BİF-nın dimerləşmə məhsullarının və İDMF-nın karbohidrogen tərkibi

Karbohidrogenlər	BİF-ın dimerləşmə məhsulları,%	105-190⁰C frak.
C_5-C_7	1.07	0.68
İzo-oktan	0.15	0.54
Diizobutilen	38.78	51.35
Diizobutilenin izomeri	21.09	27.60
Trimerlər	32.76	19.83
Tetramerlər və yuxarı	6.17	–

1 saylı cədvəldən görünür ki, BİF-nın dimerləşmə məhsullarının 105-190°C fraksiya-sının karbohidrogen tərkibində 51.32%-ə qədər diizobutilen var; deməli fenolun İDMF ilə alkilləşmə reaksiyasının əsas məhsulu para-üçlüoktilfenol olacaqdır.

İDMF-nın fiziki-kimyəvi göstəriciləri: qayn.temp. 105-190°C; n_D^{20} 1.4473; ϱ_4^{20} 0.8167-mol.k.120.

Alkilləşmə reaksiyası üçün katalizator kimi kationit KУ-23 (DÜST 20298-74) istifadə olunmuşdur.

KУ-23 (modifikasiya 10/60) tərkibində 55–70%-dək su saxlayır, 170°C-dək termiki sta-bildir. Ona görə KУ-23 istifadədən qabaq sudan azad olmaq üçün 110°C-dək qızdırılır. İş prosesində temperaturun təsiri ilə katalizatordan sulfoqrupun ayrılması və onun üzərinə qətranabənzər məddələrin toplanması nəticəsində katalizatorun fəallığı aşağı düşür. KУ-2 katalizatorundan fərqli olaraq KУ-23 katalizatoru 2-4%-li xlorid turşusu ilə regenerasiya olunur və yenidən istifadə olunur.

Fenolun İDMF ilə alkilləşmə reaksiyaları fasiləsiz işləyən mini qurğuda həyata keçirilmişdir.

Fenol və İDMF müxtəlif tutumlardan hesablanmış miqdarda qarışdırıcıya verilir. Fenolun tutumunda temperatur 45°C saxlanılır. Fenol və İDMF qarışığı qarışdırıldıqdan sonra reaktorun aşağı hissəsinə verilir. Komponentlər qarışığı katalizatorun üzərindən keçərək reaktorun yuxarı hissəsindən çıxır, soyuducuda soyudulur və alkilat üçün ayrılmış tutumda yığılır; oradan rektifikasiyaya göndərilir.

Rektifikasiya nəticəsində ilk öncə reaksiyaya girməyən İDMF və fenol (200°C-dək), sonra isə aşağı təzyiqdə (5 mm.c.st.) məqsədli məhsul və digər alkilləşmə məhsulları ayrılır. Alınmış məhsulların fiziki-kimyəvi xassələri, kimyəvi quruluşları və tərkibləri təyin edilir.

Reaksiya və rektifıkasiya məhsullarının xromatoqrafik analizi LXM-72 xromatoq-rafında həyata keçirilmişdir. Kalonun uzunluğu 2 m, bərk daşıyıcı kimi turşu ilə yuyulub dimetilxlorsilanla silanlaşdırılmış 0.2±0.25 mm ölçüdə xromaton N-AW-DMC, hərəkətsiz faza kimi 5%-li SE-30 metilsiloksan elastomeri götürülmüşdür. Kalonun ilkin temperaturu 50°C, son temperaturu 280°C, proqramlaşmanın sürəti 10°C/dəq, helium qazının sürəti 50 ml/dəq, buxarlandırıcının temperaturu 250°C, detektorun temperaturu 300°C, diaqram len-tinin sürəti 60 mm/saat.

Hər iki halda-ilkin və son məhsulların tərkiblərinin %-lə miqdarının hesablanması uçün ümumi piklərin sahələrinin cəminin 100% qəbulu əsas götürülmüşdür.

Sintez olunmuş məhsulların sıxlığı piknometrik üsulla, şüasındırma əmsalları «ИРФ-22» (Rusiya) refraktometrik üsulla təyin edilmişdir.

Reaksiya məhsullarının spektrləri Almaniyanın "BRUKER" firmasının ALPHA İQ-Furye spektrometrində Se/Zn kristalı üzərində, dalğa ədədi 600-4000sm^{-1} diapazonunda çəkilmişdir. H'MR spektrləri "Bruker" firmasının (Almaniya) Furye spektrometrində 300.18 MHs iş tezliyində, otaq temperaturunda deyteriumlaşmış benzol məhlulunda çəkilmişdir. Siqnalların (m.h.) kimyəvi sürüşmələri tetrametilsilana nisbətən götürülmüşdür. Müxtəlif struktur fraqmentlərin protonla-rının nisbi tərkibləri spektrlərin müvafiq zolaqlarındakı piklərin sahələrini inteqrallaşdırmaqla təyin edilir.

Nəticələrin müzakirəsi

Fenolun İDMF ilə KУ-23 katalizatoru iştirakında alkilləşmə reaksiyası aşağıdakı sxem üzrə gedir.



Para-alkilfenolun alınmasının səmərəli şəraitini tapmaq üçün reaksiyanın tempe-raturunun, ilkin komponentlərin mol nisbətlərinin və həcmi sürətinin məqsədli məhsulun çıxımı və seçiciliyinə təsiri araşdırılmışdır.

Alkilləmə reaksiyasının temperaturu 80-dən 140°C-dək, fenolun İDMF-na mol nisbəti 1:1-dən 1:4-dək, həcmi sürət 0.2-1.0 saat^{-1} hədlərində tədqiq olunmuşdur.

Fenolun КУ-23 katalizatoru iştirakında İDMF ilə fasiləsiz işləyən qurğuda alkilləşmə reaksiyalarının nəticələri 2 saylı cədvəldə verilir.

Cədvəl 2-dən görünür ki, reaksiyanın temperaturunun 80-dən 120°C-dək artırılması ilə çıxım 45.7-dən 67.4%-dək (götürülən fenola görə), reaksiyanın seçiciliyi isə məqsədli məh-sula görə 92.6-95.6% həddində dəyişir. Temperaturun 130-140°C-dək artırılması ilə məqsədli məhsulun müvafiq olaraq çıxımı 63.2-58.5%, seçicilik isə 82.3-89.7% hədlərində olur.

Cədvəlin göstəricilərindən məlum olur ki, reaktora verilən komponentlər qarışığında fenolun İDMF-na mol nisbətinin 1:2 götürülməsi daha məqsədəuyğundur. Belə ki, bu zaman məqsədli məhsulun çıxımı 67.4%, seçicilik isə 95.6% olur. İlkin komponentlər qarışığında fenolun və ya İDMF-nın qatılığının artırıl azalması ilə məqsədli məhsulun çıxımında və reak-siyanın seçiciliyində elə bir ciddi nəticəyə nail olmaq olmur. İDMF-nın qatlığının 3-4 dəfə artırmaqla məqsədli məhsulun çıxımı 2-2.5% artmış olur. Lakin bu bu texnoloji, istərsə də iqtisadi baxımdan sərfəli deyil. Bu zaman seçiciliyin xeyli aşağı düşməsi müşahidə olunur; bu alkilləşmə reaksiyası nəticəsində 2-mono, 2,4-, 2,6-di və 2,4,6-üç-əvəzlənmiş alkilfenolla-rın alınması ilə izah olunur:



İlkin komponentlər qarışığının katalizator ilə görüşmə müddətinin məqsədli məhsu-lun çıxımına və reaksiyanın seçiciliyinə təsiri də önəmlidir. 2 saylı cədvəldən görünür ki, həcmi sürətin 0.5 saat^{-1} qiymətində məqsədli məhsulun çıxımı 67.4%, seçicilik isə 95.6% olur. Həcmi sürətin 0.7 və 1.0 saat^{-1} qiymətlərində isə çıxım 48.0-53.7%, seçicilik isə müvafiq olaraq 94.3-96.7% olur.

Beləliklə, fenolun КУ-23 katalizatoru iştirakında İDMF ilə fasiləsiz işləyən mini labo-ratoriya qurğusunda alkilləşmə reaksiyası üçün səmərəli şərait tapılmışdır: temperatur 120°C, fenolun İDMF-na mol nisbəti 1:2, həcmi sürət 0.5saat^{-1}. Bu şəraitdə para-alkil(C_{8-12})-fenolun götürülən fenola görə çıxımı 67.4%, seçiciliyi isə məqsədli məhsula 95.6% təşkil edir.

Sintez olunmuş p-alkilfenolun kimyəvi quruluşu H^1NMR və İQ spektroskopik üsul-larla təyin edilmişdir.

P-alkilfenolun H^1NMR spektrində sinqlet CH_3 qrupu 1.20 ppm, karbohidrogen həl-qəsinin yayılmış sinqleti 1.77 ppm, OH-qrupu və multiplet 1.4 əvəzlənmiş benzol həlqəsi 5-6 ppm zolağında müşahidə olunmuşdur.

P-alkilfenolun İQ spektrində aşağıdakı zolaqlar müşahidə olunmuşdur: 1505, 1592-1610sm^{-1} (benzol həlqəsi), 3010, 3030 sm^{-1} CH_2=valent sürüşməsi), 825 sm^{-1} (CH_2=deformasiya sürüşməsi);

OH-qrupu 1240sm^{-1} və 3100-3500sm^{-1} zolaqlarında müşahidə olunur. Hem-əvəzolun-muş üçlü karbonun varlığı C-H valent sürüşmələri 2920-2845 sm^{-1} zolaqlarında, eyni zaman-da δ_{CH2} xarakterizə edən 1108, 1345 sm^{-1} zolaqlarında müşahidə olunur. Metil qrupları 1370 və 1460 sm^{-1} deformasiya sürüşmələri ilə xarakterizə olunur.

Para-alkil(C_{8-12})-fenolun fiziki-kimyəvi xassələri və tərkibi 3 saylı cədvəldə verilir.

Cədvəl 3. Para-alkil(C_{8-12})-fenolun fiziki-kimyəvi xassələri və element tərkibi

Struktur formulası	$T_{qayn.}$°C/ 5 mm c.st.	n_D^{20}	ϱ_4^{20}	Mol. kütlə	Element tərkibi, %			
					Hesabl.		Tapılıb	
					C	H	C	H
	140-160	1.5445	1.0040	280	83.2	8.9	83.9	9.4

Növbəti mərhələdə para-alkil(C_{8-12})-fenolun formalin və anilinlərlə aminometilləşmə reaksiyaları həyata keçirilmişdir.



harada X= -H; -C_3H_7

İlkin xammal kimi para-alkil(C_{8-12})-fenol, anilin və 2,6-diizopropilanilindən istifadə olunmuşdur.

Anilin və 2,6-diizopropilanilin kimyəvi təmiz istifadə olunmuş və aşağıdakı fiziki-kimyəvi xassələrə malikdir:

Aninlin-$T_{qayn.}$=184°C; n_D^{20}1.5863; ϱ_4^{20} 0.0217; m.k.93

2,6-diizopropilanilin-$T_{qayn.}$= 257°C; n_D^{20}1.6863; ϱ_4^{20} 1.1072; m.k.117

2-Hidroksi-5-alkilbenzilfenilaminlər para-alkil(C_{8-12})-fenolun formaldehid və anilin-lərlə 1:2:2 nisbətlərdə qarşılıqlı təsirindən alınmışdır. Qarışdırıcı və termometr ilə təchiz olunmuş üçboğazlı kolbaya hesablanmış miqdarda p-alkilfenol, anilin və benzol doldurulub qızdırılır. Reaksiya qarışığının 30°C temperaturunda üzərinə 1 saat müddətində damla-damla 30%-li formal dehidin məhlulu əlavə olunur. Sonra reaksiyanın temperaturu 80°C qal-dırılır və qarışdırma 2 saat davam etdirilir.

Reaksiyanın sonunda qarışıq reaksiyaya girməyən formaldehiddən azad olmaq üçün su ilə yuyulur. Amin birləşməsinin alkilfenoldan təmizlənməsi üçün o turş duzuna keçirilir. Sonra aminin turş duzunun sulu məhlulu qatı NH_4OH məhlulu ilə işlənilir və sərbəst amin birləşməsi ayrılır. Alınmış amin sudan benzol ilə ekstraksiya vasitəsilə ayrılır. Benzoldan təmizləndikdən sonra qalıq aşağı təzyiqdə rektifikasiyaya olunur, alınmış 2-hidrooksi-5-alkil-benzilfenilaminlərin fiziki kimyəvi xassələri və kimyəvi quruluşları təyin olunur.

Nümunə üçün 4 saylı cədvəldə 2-hidroksi-5-alkilbenzilfenilaminin İQ-spektroskopik tədqiqinin nəticələri verilir.

Cədvəl 4. 2-Hidroksi-5-alkilbenzilfenilaminin İQ-spektroskopik tədqiqinin nəticələri

Udulma zolağı, sm^{-1}	**Funksional qruplar**
720	CH_2 qrupunun C-H rabitəsinin deformasiya sürüşməsi
825	benzol həlqəsinin 1,2,4 əvəzlənməsi
1015, 1110, 3270	OH qrupunun O-H rabitəsinin valent sürüşməsi
1180, 1240	C(O)C qrupunun C-H rabitəsinin deformasiya sürüşməsi
1455, 1370, 2860, 2920, 2945	CH_3 və CH_2 qruplarının C-H rabitəsinin deformasiya valent sürüşmələri
1510	benzol həlqəsi
1596, 1610	C=C rabitəsi
3025	-C=C-
1735	C=O qrupu

5 saylı cədvəldə 2-hidroksi-5-alkil(C_{8-12})- benzilfenilaminlərin fiziki-kimyəvi xassələri verilir.

Cədvəl 5. 2-hidroksi-5-alkil(C_{8-12})- benzilfenilaminlərin fiziki-kimyəvi xassələri

	**$T_{qayn.}$°C/ 5 mm c.st.**	**n_D^{20}**	**ϱ_4^{40}**	**Mol. kütlə**	**Element tərkibi, %**			
					Hesabl.		**Tapılıb**	
					C	H	C	H
X=-H	188-192	1.5675	0.9467	386	71.5	7.5	71.2	7.3
X=-C_3H_7	208-212	1.6547	0.9865	470	74.0	8.7	73.6	8.4

Sintez etdiyimiz 2-hidroksi-5-alkilbenzilfenilaminlər dizel yanacağında DÜST 305-82 uyğun olaraq antioksidant kimi sınaqdan çlxarılmışdır. Sınaqlar 120°C temperaturda, 4 saat müddətində yanacaq nümunələrinin oksidləşməsi prosesində aparılmışdır. Sınağın həyata keçirilməsi üçün dizel yanacağından istifadə olunmuşdur. Dizel yanacağına məlum və təklif etdiyimiz antioksidantların 0,003% miqdarı əlavə olunaraq nümunələr hazırlanmışdır. Sonra ilkin dizel yanacağının və antioksidantlar əlavə olunmuş nümunələrin oksidləşməsindən sonra əmələ gələn çöküntünün miqdarı təyin edilmişdir.

Sınaqlar nəticəsində məlum olmuşdur ki, 2-hidroksi-5-alkilbenzilfenilaminlərin dizel yanacağında antioksidant kimi 120°C temperaturda, 4 saat müddətində sınağı zaman məlum antioksidantlardan fərqli çöküntü əmələ gəlmir. Dizel yanacaqlarına antioksidant kimi ən geniş istifadə olunan ionol əlavə olunduqda isə oksidləşmədən sonra əmələ gələn çöküntü-nün miqdarı 1,0 mq/100 sm^3 olur.

Nəticələr

1. Fenolun КУ-23 katalizatoru iştirakında İDMF ilə fasiləsiz işləyən mini qurğuda alkilləşmə reaksiyaları tədqiq olunmuşdur. Müəyyən edilmişdir ki, reaksiyanın optimal şəraitində-120°C temperaturda, fenolun İDMF-ə 1:2 mol nisbətində, həcmi sürətin 0.5 $saat^{-1}$ qiymətində para-alkil(C_{8-12})-fenolun çıxımı götürülən fenola görə 67.4%, reaksiyanın seçiciliyi isə məqsədli məhsula görə 95.6% olur.
2. Para-alkil(C_{8-12})-fenolun formaldehid və anilinlə (2,6-diizopropilanilinlə) 80°C temperaturda, 2 saat müddətində aminometil-ləşmə reaksiyaları aparılaraq 2-hidroksi-5-alkil-benzilfenilaminlər alınmışdır və dizel yanacağında antioksidant kimi sınaqdan çıxarılmışdır.

ƏDƏBİYYAT

1. Расулов Ч.К., Азизов А.Г., Мирзоев В.Г. и др. *Каталитическое арилирование и алкилирование фенола компонентами фракции 130-170°С продуктов пиролиза,* Нефте-химия, 2009, т.49, № 5, с.397-400
2. Коренев Д.К., Заворотный В.А., Келарев В.Б. *Поиск катализатора алкирования фенола олефинами*, Химия и технология топлив и масел, 2003, № 1, с. 61-63

3. Мирзоев В.Г. *Каталитическое циклоалкенилирование фенола 3-винилциклогексеном на непрерывнодействующей установке,* Процессы нефтехимии и нефтепереработки, 2015, т.17, № 2, с. 101-105
4. Магеррамов А.М., Байрамов М.Р., Мехтиева Г.М., Агаева М.А. *Получение аминометилированных производных аллилфенолов и исследование их антимикробных свой-ств в моторном масле*, Журн. прикл. химии. 2007, т.80, вып.4, с.681-686
5. Кабылянский Е.В., Василькевич И.М. *Новые присадки к смазкам на базе алкил-фенольных оснований Манниха*, Вопросы хим. и хим. технол., 2008, № 2, с.102-105
6. Расулов Ч.К., Азизов А.Г., Азимова Р.К., Абасов С.И. *Взаимодействие фенола циклодимерами изопрена в присутствии Цеолит-У, пропитанного ортофосфорной кислотой*, Нефтехимия. 2012, Т.52, №1, с.1-5
7. Марков А.Ф., Просенко А.Е., Шварц Я.Ш. и др. *Синтез и токсичные свой-ства водорастворимых производных аминоалкилфенолов*, Хим. фарм. журн, 2005, № 45, с.117-121

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY
2017. Volume 1, Number 1 Pages 51-54

УДК 678.06

МОДИФИКАЦИЯ ПОЛИМЕРА ДЛЯ ПОСЛЕДУЮЩЕГО ИСПОЛЬЗОВАНИЯ В КАЧЕСТВЕ СОРБЕНТА*

КЕРИМОВА ЭЛЛАДА САБИР КЫЗЫ

Диссертант кафедры «Химия высокомолекулярных соединений»
Бакинского Государственного Университета

afinabdu@rambler.ru

АННОТАЦИЯ

В данной статье показаны результаты исследований по получению фосфорсодержащего сорбента на основе бутадиен-стирольного каучука марки ДССК-2545. Модификация проводилась методом окислительного фосфорхлорировани. В качестве растворителя использовался CCl_4, а реагента использовался PCl_3. Было доказано наличие фосфор- и кислородсодержащих функциональных групп в полученном модификате. Полученный модификат можно использовать в качестве сорбента нефти, ионов металлов и микроорганизмов.

Ключевые слова: сорбент, модификация полимера.

BİR SORBENT KİMİ SONRAKİ İSTİFADƏ ÜÇÜN POLİMERLƏRİN MODİFİKASİYASI

XÜLASƏ

Bu məqalədə tərkibində fosfor olan DSSK-2545 markalı butadien-stirol kauçukunun əsasında sorbentin alınması üzrə tədqiqatların nəticələri göstərilib. Modifikasiya oksidləşdirici xlorfosforiləşmə üsul ilə aparılıb, bu nəticədə modifikatorda fosfor- və oksigen tərkibli funksional qrupların iştirakı sübuta yetirilib. Həlledici kimi CCl_4, reaktiv kimi də PCl_3 istifadə edilmişdir. Nəticədə alınan modifikatlar neftin, metal ionların və mikroorqanizmlərin sorbenti kimi istifadə edilə bilərlər.

Açar sözlər: sorbent, polimerшт modifikasiyası.

MODIFICATION OF POLYMERS FOR SUBSEQUENT USE AS A SORBENT

ANNOTATION

In this shows the results of the investigations on receive of phosphorous-containing sorbent on the basis of styrene batadiene rubber with a stamp of DSSK-2545. Modifications carried out by oxidative chlor-fosforilation conducted. The CCl_4 was used as solvent and reagent used PCl_3. It was proved the presence of phosphorus- and oxygen-containing functional groups in the resulting modifiers. The resulting modifiers can be used in an oil sorbent, metal ions and microorganisms.

Key words: sorbent modification of the polymer.

Синтетические органические сорбенты, благодаря своей доступности и производству в промышленных масштабах, находят все более широкое применение. Кроме того, они часто являются отходами производства. Открыто-ячеистая структура и высокая олеофильность этих материалов обеспечивают эффективность их использования в качестве сорбентов.

Цель настоящей работы-в лабораторных условиях провести химическую модификацию – окислительное хлорфосфорилирование промышленных образцов каучуков (в данном случае ДССК) для последующего использования в качестве сорбентов. Окислительное хлорфосфорилирование проведено в соответствии с методикой, описанной в работе [1]. Модификация каучуков указанным способом приводит к образованию объемно-пористых продуктов коричневого или темно-коричневого цвета.

В работе использовали бутадиен-стирольный каучук Марки ДССК (характеристика бутадиен-стирольного каучука указана в табл.1.), фосфор треххлористый, кислород (осу-

шали, пропусканием через концентрированную серную кислоту), четыреххлористый углерод (использовали без дополнительной очистки (х.ч.). ИК-спектр показывает, что полосы 795-760 $см^{-1}$ отвечают связанным с углеродом атомам хлора (рис.1).

Рис.1. ИК-спектр четыреххлористого углерода – CCl_4.



Таблица 1

Наименование показателей	**Значение показателя**	
	1 группа	**2 группа**
Вязкость по Муни, МБ 1+4 (100ОС)	45-55	56-65
Массовая доля антиоксиданта,% ВТС-150 Или С-789 (Ал Сиб)	 1,2-1,8 0,2-0,4	 1,2-1,8 0,2-0,4
Массовая доля связанного стирола,%	23-27	23-27
Массовая доля золы, %, не более	0,3	0,3
Потери массы при сушке, %, не более	0,5	0,5
Условная прочность при растяжении, Мпа (кгс/см²), не менее	17,0 /(174)	17,0 (174)
Относительное удлинение при разрыве, %, не менее	360	360
Массовая доля 1,2 звеньев (на бутадиеновую часть цепи), %	45-55	45-55
Массовая доля масла,%	25-29	25-29
Условное напряжение при 300% удлинении, Мпа (кгс/см²), не менее	8,0 (82)	8,0 (82)

Для определения СОЕ было взято три навески полученного сорбента в количестве, соответствующем 0,1 г сухого продукта и 20 мл 0,1 раствора NaOH, и выдерживали 24 часа, периодически взбалтывая. Образцы оставляют на 24 часа. После этого сорбент отфильтровывали, отбирали 5 мл пипеткой фильтрат и титровали 0,1 н раствором HCl в присутствии 1 % спиртового раствора фенолфталеина. Величину статической объемной ёмкости СОЕ (мг-экв/г) рассчитывали по формуле:

$$\mathrm{COE} = \frac{(200F - 40VF1) * 0{,}004 * 1000}{40g} = \frac{20F - 4VF1}{10g}$$

где F- поправочный коэффициент 0,1 н раствора NaOH;

V - объем 0,1 н раствора HCl, израсходованного на титрование, мл;

F_1 - поправочный коэффициент 0,1 н раствора HCl;

40 - молекулярный вес NaOH;

0,004 - титр 0,1 н раствора NaOH;

g - навеска сорбента, г.

$$\text{COE} = \frac{(20 * 1{,}02 - 4 * 2{,}067 * 1) * 0{,}004 * 1000}{40 * 0{,}1} = \frac{20 * 1{,}02 - 4 * 2{,}067}{10 * 0{,}1} = 12{,}132$$

Были получены ИК-спектры поглощения растворителя (четыреххлористый углерод), бутадиен-стирольного каучука и модифицированного ДССК на ИК-спектрометре марки Varian 640 – IR в средней ИК-области 2,5 -25 микрон, волновое число 4000-400 $см^{-1}$. ИК-спектр бутадиен-стирольного каучука получен в виде тонкой пленки, нанесенной на подложку KRS-5. Толщина слоя d=10-50 микрон. ИК-спектр модификата был получен в виде таблеток твердого раствора KBr (1:200) путем прессования под давлением P=200 $кг/см^2$. Толщина таблетки 0,7 см.

В ИК-спектре бутадиен-стирольного каучука (рис.2) полосы 3030 $см^{-1}$ и 1600-1500 $см^{-1}$ показывают присутствие ароматической группы (бензольного кольца), характер замещения определяется по сильному поглощению ниже 900 $см^{-1}$. Полоса поглощения 1490-1460 $см^{-1}$ показывает наличие двойной связи в макромолекуле полимера [2].

В результате модификации был получен объемно-пористый продукт темно-коричневого цвета, гидрофобный и обладающий хорошей плавучестью после сорбции нефти. Был сделан ИК-спектр полученного модификата (рис.3). В ИК-спектре модифицированного ДССК полосы поглощения 1050-1030 $см^{-1}$ отвечают атому фосфора, связанному с алкильной частью полимера через кислород. Полосы поглощения 1240-1190 $см^{-1}$ показывают присоединение фосфора через кислород к ароматической части полимера. В полимерах связанная ОН-группа дает сигнал в области 3400-3200 $см^{-1}$. Для твердых веществ наблюдается только одна широкая полоса. Полоса поглощения 1720 $см^{-1}$ соответствует группе –СО-О-, присоединенной к ароматической части полимера, а также к участкам полимера, содержащим двойные связи. Первый обертон υC=O (около 1720 $см^{-1}$) также лежит при 3500-3400 $см^{-1}$, но отличается низкой интенсивностью [2].

Рис.2. ИК-спектр бутадиен-стирольного каучука.



Рис.3. ИК-спектр модифицированного ДССК.



Полученный модификат в дальнейшем можно использовать в качестве сорбента для сорбции ионов металлов, тонких нефтяных пленок, микроорганизмов [3].

ЛИТЕРАТУРА

1. **Статья:** А.М. Магеррамов, Р.М.Алосманов, А.Я.Меликова. Фосфохлорирование полибутадиена фосфор (III)хлоридом в присутствии кислорода. Изв. вузов. Химия и химическая технология, 2003, т.46, №6, с.25-27.
2. **Книга:** К.Наканиси. Инфракрасные спектры и строение органических соединений. Москва: Мир, 1965, 32-68 с.
3. **Статья:** А.М.Магеррамов, А.А.Азизов, Р.М.Алосманов, Э.С.Керимова, И.А.Буният-заде. Использование полимеров в качестве сорбентов, журнал «Молодой ученый», №4(84), т.I, стр.38-41, 2015.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY
2017. Volume 1, Number 1 Pages 55-66

UOT: 662.337.2:553.98.061.17

DISTRIBUTION REGULARITIES, GEOCHEMICAL CHARACTERISTICS OF OIL SHALE IN AZERBAIJAN AND HYDROCARBON POTENTIAL OF EOCENE-MIOCENE SEDIMENTS

O.R. ABBASOV

AMEA Geologiya və Geofizika İnstitutu

Bakı / AZƏRBAYCAN

ortal80@bk.ru

ABSTRACT

The paper is devoted to a detailed study of oil shale that is considered a new alternative energy and fuel resource for Azerbaijan. More than 60 surface manifestations of oil shale, related to sediments between Eocene and Miocene in the territories Shamakhi-Gobustan, Absheron, Pre-Caspian-Guba, Vandam-Lahij and etc. of the Republic are investigated on its distribution regularity and geochemical properties. Oil shale of these epochs, which can't be reached due to exploration wells, but brought from the different depths to the Earth's surface (where oil shale surface manifestations widely distributed) by eruptions of mud volcanoes have been studied as well. Along with geochemical study of oil saturated rocks, found in ejected production of mud volcanoes, a comparative analysis have been conducted on heavy fractions, obtained from these rocks and oil shale. The results of these studies show that bitumen (its heavy fractions) of Eocene-Miocene oil shale and oil-saturated rocks are similar, and may cause to formation and accumulation of hydrocarbons in ultra-deep sediments of mud volcanic areas. All conducted investigations are increasing the topicality of perspectives of shale gas in Azerbaijan, which is non-traditional for the country.

Keywords: oil shale, distribution regularity, geochemistry, hydrocarbon potential, shale gas.

AZƏRBAYCANIN YANAR ŞİSTLƏRİNİN YAYILMA QANUNAUYĞUNLUQLARI, GEOKİMYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ EOSEN-MİOSEN ÇÖKÜNTÜLƏRİNİN KARBOHİDROGEN POTENSİALI

XÜLASƏ

İcmal xarakterli məqalə, Azərbaycan üçün yeni alternativ yanacaq-enerji və xammal mənbəyi sayılan yanar şistlərin geniş tədqiqinə həsr olunur. Respublika üzrə Şamaxı-Qobustan, Abşeron, Quba-Xəzəryanı, Vəndam-Lahic və s. regionlarda eosen-miosen yaşlı çöküntülərlə əlaqədar olan yanar şistlərin 60-dan çox yerüstü çıxışının yayılma qanunauyğunluqları və ətraflı geokimyəvi xüsusiyyətləri təhlil olunur. Tədqiqatlara, yanar şistlərin yerüstü çıxışlarının geniş yayıldığı zonalarda palçıq vulkanlarının püskürməsi nəticəsində yer səthinə gətirilən (qazıma ilə öyrənilməyən) eyni yaşlı şistlərin geoloji-geokimyəvi araşdırılması da daxil edilmişdir. Bundan başqa, vulkan tullantılarında rast gəlinən neftli süxurların geokimyəvi araşdırılması ilə yanaşı, həmin süxurlardan və şistlərdən alınan bitumların (ağır fraksiyalarının) müqayisəli təhlili də həyata keçirilib. Məlum olmuşdur ki, eosen və miosen yaşlı yanar şistlərdən (şistlərin kerogenindən) və neftli süxurlardan alınan bitumlar tərkibcə bir-birinin analoqu olmaqla, palçıq vulkanlarının yerləşdiyi ərazilərin daha dərin çöküntülərdə karbohidrogenlərin əmələ gəlməsində və paylanmasında müəyyən rola malik ola bilər. Tədqiqatlar, həmçinin Azərbaycan üçün qeyri-ənənəvi sayılan şist qazı məsələsinin araşdırılmasında da böyük perspektivlər vəd edir.

Açar şözlər: yanar şist, yayılma qanunauyğunluğu, geokimya, karbohidrogen potensialı, şist qazı.

ЗАКОНОМЕРНОСТИ РАСПРЕДЕЛЕНИЯ, ГЕОХИМИЧЕСКИЕ СВОЙСТВА ГОРЮЧИХ СЛАНЦЕВ АЗЕРБАЙДЖАНА И УГЛЕВОДОРОДНЫЙ ПОТЕНЦИАЛ ЭОЦЕН-МИОЦЕНОВЫХ ОТЛОЖЕНИЙ

РЕЗЮМЕ

Статья посвящена подробному изучению новых для Азербайджана альтернативных топливно-энергетических ресурсов-горючих сланцев. В работе рассмотрены более шестидесяти проявлений горючих сланцев республики (В Шамахы-Гобустанском, Абшеронском, Прикаспийско-Губинском, Ванндам-Лахиджском и др. районах), связанных с отложениями от эоценого до миоценового возраста, закономерность их распределения, а также геохимические свойства. В рамках исследований были изучены горючие сланцы того же возраста, выносимые на земную поверхность (где поверхностные проявления горючих сланцев широко распространены) в результате извержений грязевых вулканов из недоступных для поисково-разведочных скважин глубин. Наряду с изучением геохимической нефтенасыщенных пород, найденных в выброшенной

продукты грязевых вулканов, сравнительный анализ был проведен на битумных фракций, полученных из этих пород и горючих сланцев. Результаты этих исследований показывают, что битум (его тяжелые фракции) полученных из эоцен-миоценывых горючих сланцев и нефтенасыщенных пород одинаковы, и может привести к образованию и накоплению углеводородов в сверхглубоких отложений грязи вулканических областей.

Все проведенные исследования увеличивают актуальность перспектив сланцевого газа в Азербайджане, который является нетрадиционным для страны.

Ключевые слова: горючих сланцев, закономерности распределения, геохимия, углеводородный потенциал, сланцевый газ

Giriş və qısa tarixi icmal: Azərbaycanda karbohidrogen ehtiyatlarının zənginliyi onun regiondakı statusunu fərqli duruma gətirib. Bu ehtiyatların daha da zənginləşdirilməsi üçün kompleks tədqiqat istiqamətləri genişləndirilir. Bununla əlaqədar, yerin daha dərin qatları da daxil olmaqla yeni neft və qaz yataqlarının axtarılması məsələsi aktullaşır. Lakin ölkəmizin enerji bazasının potensialı təkcə neft və qazla ölçülməməlidir. Çünki belə ehtiyatlarla yanaşı, respublikada təbii bitum, yanar şist, qazhidrat və s. qeyri-ənənəvi resursları da mövcuddur. Bunların içərisində yanar şistlər xüsusi əhəmiyyət kəsb edir.

Hazırda dünyanın bir sıra ölkələrində yanar şistlərdən-şist qazının alınmasında (ABŞ, Kanada, Çin və s.), istilik-elektrik stansiyaların işlədilməsində (Estoniya, Çin, Almaniya və s.), sement (Estoniya, Çin, Almaniya) və gübrə istehsalında (Estoniya, İsveçrə), tibbi ləvazimatların hazırlanmasında (Fransa, Rusiya, Çin), kimya sənayesi məhsullarının əldə edilməsində (Çin, Estoniya, Rusiya) və s. xammal kimiistifadə edilir. ÇXR-da bu növ faydalı qazıntılardan 45 növ sintetik yanacaq, kimyəvi preparatlar və digər məhsullar hazırlanır [1, 2].

Azərbaycanda yanar şistlərin öyrənilməsinə dair ilkin tədqiqatlar hələ keçən əsrin əvvəllərində rus alimləri tərəfindən aparılıb. Əsrin sonuna yaxın azsaylı digər tədqiqatçıların əsərlərində bu məsələyə müxtəlif səviyyələrdə baxılıb [3, 4, 5, 6]. Aparılan tədqiqatlar, ayrı-ayrı rayonlarda müəyyənləşdirilən yanar şistlərin yerüstü çıxışlarına dair qısa təsvirlərdən ibarət olub. Lakin 2000-ci ildən bəri,bu işlə daha təfsilatlı AMEA Geologiya və Geofizika İnstitutunda məşğul olunur. İnstitutun "Palçıq vulkanizmi" şöbəsinin əməkdaşları Azərbaycanın yanar şistlərinin geologiyası, geokimyası, proqnoz resursları və istifadəsinə dair silsilə tədqiqatlar aparırlar [7, 8].

Yanar şistlərin yayılma qanunauyğunluqları: Respublikada yanar şistlərə, əsasən Şamaxı-Qobustan, Abşeron, Quba-Xəzəryanı, Vəndam-Lahıc və s. regionlarda rast gəlinir (şəkil 1). Bu rayonlarda yanar şistlərin 60-dan çox yerüstü çıxışları öyrənilib. Onlar geniş stratiqrafiq diapozonda (təbaşir-miosen yaşlı çöküntülərdə) yayılıblar [9].

Şək. 1. Azərbaycanda yanar şistlərin yayılmasının sxematik xəritəsi.



Şamaxı-Qobustan rayonu: Böyük Qafqazın cənub-şərq batımında yerləşən Şamaxı-Qobustan rayonu çox mürəkkəb geoloji-tektonik xüsusiyyətlərə malikdir. Burada 120-yə qədər palçıq vulkanı, 30-dan artıq yanar şist çıxışı və istismarda olan neft-qaz yataqları vardır.

Yanar şist məlum çıxışları, əsasən Mərkəzi Qobustanda, nisbətən Şamaxı tektonik zonasında inkişaf tapmışdır. Onların daha geniş yayıldığı Qobustanın geoloji quruluşunda mezokaynozoy və dördüncü dövr çöküntüləri iştirak edir. Qobustan, Görədil-Masazır qırılma zonası və Qucur-Qızıldaş üstəgəlməsi ilə şimaldan ayrılmış alloxtondan, mərkəzində yerləşən paravtoxtondan və cənubunda olan avtoxtondan ibarətdir [10] (şəkil 2).

Şək. 2. Qobustanın geoloji xəritəsi [10].



Şimal Qobustanda təbaşir yaşlı çöküntülərlə əlaqədar bir neçə yanar şist çıxışı (Qızmeydan, Zarat-Xeybəri, Kürkəçidağ və s.) qeydə alınır. Lakin onların sənaye əhəmiyyətliyi heç də yüksək qiymətləndirilmir (şəkil 3).

Şək. 3. Şamaxı-Qobustan rayonun təbaşir yaşlı yanar şist çıxışlarının sxematik xəritəsi.



Mərkəzi Qobustanda, paleogen-miosen çöküntülərinin geniş yayıldığı sahədə yanar şist təzahürlərinin çoxsaylı çıxışları qeydə alınır. Şistli çıxışların paravtoxton mənşəli tektonik blokda (Bayanata) geniş inkişaf tapması ərazinin əlverişli paleocoğrafi və paleotektonik şəraiti ilə izah oluna bilər.

Bayanata mikroblokunun quruluşunda iştirak edən paleogen-miosen yaşlı çöküntülər 2,5-4,5 km qalınlığa malikdirlər. Bu çöküntülərdən fərqli olaraq, Görədil-Masazır qırılma zonasından şimalda yerləşən eyni yaşlı çöküntülər (Şimali Qobustan alloxtonunda) təbaşir yaşlı örtüyün (flişoidlərdən təşkil olunmuş) altında yatırlar. Belə güman edilir ki, Bayanata mikroblokunun

paleogen-miosen yaşlı çöküntüləri alloxtonun üst təbaşir yaşlı karbonat kompleksləri ilə avtoxtonun 11 km-ə qədər artankaynazoy çöküntüləri arasında sıxılıb qalmışlar. Belə mürəkkəb tektonik şəraitdə, yanar şistləri əmələ gətirən üzvi maddələrin toplanması üçün həm əlverişli fasial, həm də paleocoğrafi şərait (lil fasiyalı çöküntülərin tərkibində üzvi maddələrin bolluğu, dayaz, genişsahəli körfəzin, kontinental laqunlarının olması) mövcudolmuşdur. Qısamüddətli geoxronoloji fasilələrlə toplanmış belə çöküntülərsonrakı mərhələlərdə dinamometamorfizmə uğrayaraq şistləşmə prosesinə məruz qalmışlar.

Məkanca yanar şistlərin, əsasən Mərkəzi Qobustan ərazisində inkişaf tapması rayonun tektonik quruluşu, zamanca isə orta eosendən başlayaraq maykop, konk və miotes çöküntülərində yayılması litogenez prosesində üzvi qalıqların fasilələrlə toplanlanması ilə əlaqələndirilir (şəkil 4).

Şək. 4. Şamaxı-Qobustan rayonunun eosen-miosen yaşlı yanar şist çıxışları [11].



Abşeron rayonu: Abşeron rayonunun geoloji quruluşunda üst təbaşir və kaynozoy yaşlı terrigen-karbonat süxurları iştirak edirlər. Rayonda 15-dən artıq yerüstü yanar şist çıxışlarına rast gəlinir. Onlar, əsasən üst maykop, konk və meotis çöküntülərilə əlaqədardır. Yalnız, Şamaxı-Qobustan neftli-qazlı rayonu ilə sərhəddə iki çıxışın (Göytəpə, Üçtəpə) yanar şistləri eosen yaşlıdır.

Rayonda maykop seriyası ilə əlaqədar bitumlu qara şistli layların növbələşməsinə Üçtəpə-Şorçala dağlarının şimal yamacında, Riki horizontunun 112 m-lik, eləcə də Göytəpə, Orjandağ və Fatmayının kəsilişlərində rast gəlinir. Yanar şistlərin Riki horizontunda inkişaf tapması üst maykop hövzəsinin nisbətən dərin hissəsilə əlaqədar olub, Gürcüvan kəndindən başlayaraq, Şamaxı və Sumqayıtçaya qədər enli zolaq şəklində davam edir.

Yanar şistlərin konkla bağlı çıxışı Qərbi Abşeronun Şorbulaq və Qaraheybət sahələrində öyrənilib. Çıxışın qalınlığı 30 m təşkil edir. Vərəqvarı yanar şistlər, həmçinin Üçtəpə-İlxıdağ sinklinalında və Güzdək stansiyasından 2 km şimali-qərbdə, Göytəpə qırışığının şimal-şərq qanadının cənub-şərq qurtaracağında müşahidə edilir. 120 m qalınlıqlı karaqan-konk çöküntülərində boz və qəhvəyi-boz rəngli, qalınlığı 20 m-ə yaxın yanar şistli qat ayrılır. Eyni yaşlı yanar şistlər Keçəldağ-Zigilpiri qırışığının cənub perkilinalında, bir neçə km davam edən sahədə inkişaf tapmışdır. Zigilpirinin 26 m-lik kəsilişində 7 boz, tünd boz rəngli yanar şistdən ibarət lay ayrılır. Bundan əlavə, yanar şistlər Masazır qəsəbəsindən cənubda, Keçəldağ vulkanından şimalda və Şirinnohur gölünün qərbində, 1,5 km uzunluqlu sahədə qeyd olunur. Binəqədidən şərqdə, yanar şistli laylar təxminən 130 m-lik karaqan-konkun kəsilişində 5-6 m-dək artan qalınlıqla təzahür edir.

Abşeron yarımadasının şimal-qərb və şimal hissələrində yanar şistlər Fatmayı, Orjandağ və Saray qırışıqlarının kəsilişlərində müəyyənləşdirilir. Konk horizontunun ümumi qalınlığı 20-25 m təşkil edir və kəsiliş əsasən qara şistlərdən ibarətdir.

Yarımadada meotislə əlaqədar yanar şistlər müxtəlif sahələrdə fərqlənən qalınlıqlarla yayılıblar. Qərbi Abşeronun cənubunda onlar Şorbulaq sahəsində, Küsməlidağ sinklinalında, Üçtəpədə və çox da böyük əhəmiyyət kəsb etməyən hissəsi Damlamaca qalxımından aşağıya, Qaraheybətə qədər olan zonada inkişaf tapır. Şistlərin sonrakı intişar sahələri Atəşgah, Xırdalan, Şabandağ, Binəqədi, eləcə də Keyrəki vulkanının şimal zonaları ilə əlaqədardır. Abşeronun şimal hissəsində rast gəlinən yanar şist çıxışları Sumqayıtçayın sağ sahilində, Göytəpənin şimalında, Corat sinklinalının şərq və qərb periklinallarında, Orjandağın şimali-şərq qanadında (22 m qalınlıqda, 650 m uzunluqda), Saray (6 m qalınlıqda, 1 km uzunluqda) və Fatmayı qırışıqlarında izlənilir. Bu sahələrdə meotisin qalınlığı 70 – 130 m arasında tərəddüd edir.

Quba-Xəzəryanı rayonu: Rayonda eosen çöküntüləri iki litofasiyada: şimal-qərbdə (Samur çayından Şabran şəhərinə kimi) bitumlu mergellər, cənub-şərqdə gil və gilli şistlər şəklində təzahür edib. Orta eosenin qalınlığı 40-50 m-i keçmir. Burada, yanar şistlər özünü kiçik çıxışlar üzrə biruzə verir. Onların praktiki əhəmiyyəti qənaətbəxş hesab edilmir. Bundan başqa, yanar şistli layçıqlar Siyəzənin, Saadanın və Şurabadın quyu kəsilişlərinin bəzilərində qeydə alınıb.

Maykop seriyası (oliqosen-üst miosen) yanar şistli laylara, yalnız Quba-Xəzəryanı rayonunun şimal-qərb hissəsində rast gəlinsədə onların iqtisadi səmərəliyi diqqəti cəlb etmir.

Konk yaşlı yanar şistlərə, 8-15 m qalınlıqlı kəsilişdə Çandaqar sahilində təsadüf edilmişdir.

Meotis çöküntülərilə əlaqədar yanar şistli süxurlara yalnız Şurabadın cənub-şərq ərazisində rast gəlinib. Yaşma sahəsində meotisin gilli kəsilişində yanar şistlərin iki layı ayrılır.

Quba yatağı. Eyniadlı şəhərindən 25 km cənubda yerləşir. Yatağın yanar şistləri üst sarmat çöküntüləri ilə əlaqədar olub, 27-255 metrlik kəsilişdə 7-18-dək şist saxlayan laylara rast gəlinir. Daha praktik əhəmiyyət kəsb edən yanar şist layı Qudiyalçaydan şimal-qərb – cənub-şərq istiqamətində uzanır. Üst sarmat çöküntülərilə əlaqədar olan bu layın uzunluğu 29 km təşkil edir (şəkil 5) [5, 6]. Gilgilçaya doğru getdikcə yanar şistlərin müxtəlif çıxışlarının davam etməsi qeydə alınır. Qudiyalçaydan şimal-qərb istiqamətində, Qusarçay-Tahircalçay suayırıcı sahələrində və Əniq kəndində şistli layların bəzi çıxışları müşahidə edilir.

Şək. 5. Quba yatağının geoloji xəritəsi və profili (miqyas 1:100000).



Q - dördüncü dövr çöküntüləri, N_2^3ak - akcaqıl mərtəbəsi,
N_2^1pr - məhsuldar qat, N_1^3p - pont mərtəbəsi,
N_1^3s - üst sarmat mərtəbəsi, N_1^2kn-kg - konk-karaqan horizontu,
N_1^2č - çokrak horizontu, P_3+N_1^1mk - maykop seriyası,
P_2 k - qovundağ lay dəstəsi, P_1s - sumqayıt lay dəstəsi,
K_2 - üst təbaşir, K_1 - alt təbaşir, J_3tt - üst yura (titon),
J_2a - orta yura (aalen).

Yanar şistlərin daha qalın kəsilişləri Vəlvələçayla və Qaraçay sahələrinin arasında öyrənilib. Burada, üç yanar şistli sahə ayrılır. Vəlvələçay və Kamalçayın arasında yerləşən birinci sahə 4,7 km uzanmaya malikdir. Sahədə 11 yanar şistli lay vardır. İkinci sahənin uzunluğu 3 km-dir. Kamalçay və Çaqaçukçay arasında yerləşən bu sahədə 14 şistli lay ayrılır. Üçüncü sahə isə nisbətən kiçik, 1,5 km uzanma ilə müşahidə edilir. Qaraçayın sağ sahilində yerləşən bu sahədə 16 yanar şistli lay təzahür edir (şəkil 6).

Şək. 6. Vəlvələçay və Qaraçay arasında yerləşən yanar şistli sahələr.



Diyallı yatağı. Yataq İsmayıllı rayonunda, mərkəzdən 7-8 km şərqdə yerləşir. Tektonik cəhətdən bu rayon mürəkkəb quruluşlu Vandam-Lahıc zonasına aid edilir və çox güman ki, burada üst sarmat dövründə yanar şistlərin əmələgəlməsi üçün əlverişli geoloji-geokimyəvi şərait mövcud olmuşdur. Burada sarmatla əlaqədar, 1,5 km uzananiki mulda müəyyən edilmişdir ki, onlar yanar şistlərlə zəngindir [9]. Yanar şistli layın qalınlığı 300-370 m, düşmə bucağı 35-47°-dir. Şimala doğru davam etdikcə, layı üst tabaşir yaşlı əhəngdaşları örtür [17]. (şəkil 7).

Şək. 7. Diyallı yanar şist yatağının sxematik geoloji xəritəsi.



Nəticə: Azərbaycanın yanar şistlərinin əmələgəlməsinin və yayılma qanunauyğunluqlarının təhlili göstərir ki, diqqəti cəlb edən çıxışlar, əsasən Şamaxı-Qobustan, eləcə də Abşeron, Quba-Xəzəryanı rayonlarında və Vəndam-Lahıc zonasında intişar tapır. Bu çıxışlar, əsas etibarı ilə eosen-miosen yaşlıdır. Məkanca yanar şistlərin bu rayonlarda daha çox intişar tapması, çox güman ki, onların tektonik quruluşu, zamanca isə orta eosendən başlayaraq üst maykop, konk, sarmat və meotis çöküntülərində yayılması litogenez prosesində üzvi qalıqların fasilələrlə toplanlanması ilə əlaqəlidir. Bu prosesdə yanar şistləri əmələ gətirən üzvi maddələrin toplanması üçün həm əlverişli fasial, həm də paleocoğrafi şəraitin (lil fasiyalı çöküntülərin tərkibində üzvi maddələrin bolluğu, dayaz, genişsahəli körfəzin, kontinental laqunlarının olması) mövcudluğu da müstəsna rola malik olmuşdur.

Azərbaycanın yanar şistlərinin istismara cəlb olunması nöqteyi-nəzərindən ən perspektivli rayonu Qobustan hesab olunur ki, burada öyrənilən müxtəlif yaşlı iri şistli çıxışlar həm bir-

birinə yaxın, həm də meşə və yaşayış massivindən xeyli uzaqda yerləşir. Bu amillər ekoloji və iqtisadi cəhətdən yüksək praktiki əhəmiyyət kəsb edir.

Yanar şistlərin geokimyəvi tədqiqatları: Azərbaycan, həm də palçıq vulkanlarının dünya üzrə ən çox inkişaf tapdığı unikal ölkələrdəndir. İndiyədək, yanar şistlər palçıq vulkanlarının intişar etdiyi neftli-qazlı rayonlar da daxil olmaqla, həm yerüstü çıxışlar və həm də 200 m dərinlik (qazıma yolu ilə) üzrə tədqiq olunmuşdur [9]. Lakin palçıq vulkanların yer səthinə çıxartdığı süxurlar müxtəlif dərinliklərlə (bizən 6-8 km) əlaqəlidir. Həmin tullantılar arasında üzvi maddələrlə zəngin, eosen-miosen yaşlı yanar şistlərə rast gəlinir. Bundan savayı, tullantılar arasında eyni yaşa malik neftli suxurlar da vardır ki, onlar diqqət cəlb edir [12]. Belə süxurların laboratoriya analizləri, palçıq vulkanlarının yerləşdikləri ərazilərin daha dərin çöküntülərinin (dərin qazıma və ya geofiziki tədqiqatlarla qənaətbəxş öyrənilməyən) karbohidrogen potensialının qiymətləndirilməsində informativ əhəmiyyətə malikdir [13-16].

Bu məqsədlə, Qobustanın müxtəlif sahələrində: şimalda (palçıq vulkanlarının sayı daha azdır, onlar kiçik ölçülərə malikdirlər və demək olar ki, çox nadir hallarda püskürürlər), mərkəzdə (3,5-4,5 km qalınlığa malik paleogen-miosen çöküntüləri ilə əlaqədar palçıq vulkanlarının sayları Şimali Qobustana nisbətən daha çoxdur) və cənubda (paleogen-miosen çöküntülərinin qalınlığı 11 km-ə qədər artır və sayca ən çox, ən iri aktiv vulkanlar burada yerləşir) inkişaf tapmış vulkanların brekçiyalarında tapılan eosen və maykop seriyası yaşlı yanar şistlər geokimyəvi analiz olunmuşdur. Vulkanlardan götürülmüş yanar şistlərin tərkibindəki üzvi maddənin miqdarı 7,56-42,55% təşkil edir [14, 15]. Bayanata mikroblokunda (Mərkəzi Qobustan) yerləşən palçıq vulkanlarından Şıxzərlı istisna olmaqla, qalan vulkanların (Pirəkəşkül, Veys və s.) tullantı məhsullarında müəyyənləşdirilən yanar şistlərinin tərkibindəki üzvi maddənin miqdarı digər sahələrdən nisbətən fərqlənir.

Vulkan tullantılarında şistli süxurların həlledicilərlə ekstraksiyasından alınan nəticəyə görə, həll olan üzvi maddənin miqdarı ən çox Quşçu vulkanında - 8,34% təşkil edir. Bu vulkanda öyrənilən yanar şistlərinin kerogen hissəsi 34,02% təyin olunub. Nisbətən az bitum alınan vulkanlar - Çapılmış və Qələndəraxtarmadır. Ekstraksiya olunmuş süxur nümunələrinin tərkibindəki üzvi maddələrin böyük hissəsi onların kerogen tərkibində cəmləşir (cədvəl 1).

Cədvəl 1. Qobustanın vulkan tullantılarının yanar şistli nümunələrinin ekstraksiyası

Vulkanlar	Həlledicilərdə həll olan üzvi maddənin miqdarı, %		Cəmi, %	Kerogenin miqdarı, %
	Xloroform	Spirt-benzol (1:1)		
Şıxzərli	0,44	0,97	1,41	6,15
Pirəkəşkül	1,00	0,61	1,61	19,97
Veys	0,51	0,42	0,93	16,85
Quşçu	2,54	5,80	8,34	34,02
Çapılmış	0,34	0,22	0,56	27,31
Süleymanaxtarma	1,12	0,62	1,74	8,75
Çeyildağ	0,18	0,38	0,56	9,35
Qələndəraxtarma	1,04	0,74	1,78	6,12
Şəkixan	0,59	0,50	1,09	10,36
Ağtirmə	1,16	0,48	1,64	8,47
Solaxay	0,82	1,05	1,87	9,88
Daşgil	0,72	0,56	1,28	10,02
Ayrantökən	0,93	1,02	1,95	8,96
Durandağ	1,01	0,52	1,53	12,35
Qotur	1,22	0,55	1,77	10,06

Yanar şistlərin tərkibindəki üzvi maddənin əmələ gəlməsi və paylanması, əsasən diagenezin sonunda gedən proseslərdən və müəyyən dərəcədə ana maddənin spesifik xüsusiyyətindən asılıdır. Təbii katagenez prosesinin izah etmək məqsədilə, laboratoriyada aparılmış eksperimentlərlə yanar şist nümunələri termiki analiz edilmişdir.

Ayrı-ayrı vulkan sahələrindən götürülmüş nümunələrin termolizi onların müxtəlif maksimum yanma temperaturuna malik olmasını göstərir. Ümumi olaraq, bu prosesdə yanar şistlərin tərkibindəki üzvi maddələr öz kütləsini 200-500 °C-də itirir. Ən çox üzvi maddəyə malik Quşçu vulkanının sınaq nümunələri mərhələli olaraq 300, 400 və 500 °C-də yanır (çəkisini maksimum itirir). Nisbətən daha çox üzvi maddə saxlayan vulkanlardan Çapılmış-400 °C və Veys – 200 və 400 °C-də analoji olaraq çəkisini itirir (diaqram 1, 2).

Diaqram 1. Şıxzərli, Süleymanaxtarma və Quşçu palçıq vulkanlarının yanar şistlərinin termiki analizlərinin nəticələri



Diaqram 2. Veys, Pirəkəşkül və Çapılmış palçıq vulkanlarının yanar şistlərinin termiki analizlərinin nəticələri.



Karbohidrogenin ana maddəsini təşkil edən üzvi maddə çox az dəyişikliyə uğrayaraq, artan temperaturla əvvəlcə nüvələr arasında zəif olan heteroatom əlaqəsinin parçalanması baş verir və bu zaman həlledicidə həll olan heteroatomlu yüksək molekullu məhsulların azad olunması nəticəsində qətranlara və asfaltenlərə oxşar maddələr alınır. Prosesdə kerogen öz yüngül hissəsini (CH_4, H_2O, CO_2 və C_2H_6) itirir və nəticədə yüksək dərəcədə aromatikləşmə(H/C nisbəti ilə) müşahidə olunur. Daha sonra, kerogen yüksək molekullu heteroatomlu birləşmələrə çevrilir və bu birləşmələrdən azad olunaraq, nisbətən kiçik molekullar əmələ gətirir. Kerogenin tam yetişmiş strukturunda aromatik plastik təbəqələr subparalel sırasını əmələ gətirərək, təbəqələr arasında nizamlanmanı artırır. Bəzi müəlliflərə görə, kömür və yanar şistlərdə olan üzvi maddənin temperaturdan asılı olaraq dəyişməsi zamanı ana süxur katalitik təsirdə olur

və bu proses daha da tezləşir. Gilli və karbonatlı süxurlarda katalitik təsir nəticəsində kondensləşmiş aromatik və ya alifatik strukturlu üzvi maddələr alınır. Alifatik strukturlu üzvi maddənin tərkibində poliaromatik qruplaşma və heteroatomlu rabitə az olduğu üçün H_2-nin çoxluğu və O_2-nin azlığı bu struktur üçün xarakterik hal alır.

Aromatik strukturlu üzvi maddələrdə poliaromatik və O_2 saxlayan funksianal qruplar çox olduğundan, onların tərkibində uzun (yan) zəncirli alkanlar və yağ turşuları ikinci dərəcəli yer tutur. Bunların tərkibində heteroatomlu keton və karboksil qrupları daha çoxluq təşkil edir. Belə birləşmələrin tərkibində heteroatomlu üzvi maddələr olduğundan, temperaturdan asılı olaraq, parçalanma daha tez gedir. Alifatik strukturlu üzvi maddələrin tərkibindəki hete roatomlu birləşmələr az olduğu üçün onlar əlavə temperatur tələb edir. Aparılmış tədqiqatlarda daha yüksək temperaturda öz kütləsini azaldan üzvi maddələrin - alifatik tipli, aşağı temperaturda (200°C) öz kütləsinin çox hissəsini itirən üzvi maddələrin isə aromatik tipli struktura uyğunluğu dəqiqləşdirilmişdir.

Analitik təhlillər göstərir ki, termoliz prosesində sınaq nümunəsi üçün kütlə çəkisinin maksimum itirilmə intervalı üzvi maddənin struktur quruluşundan, ilkin əmələgələn maddələrdən, geoloji şəraitdən, yerləşdiyi mühitin termokatalik təsirindən və s. asılıdır.

Pilləli termoanaliz prosesinin nəticələrini təhlil etdikdə müəyyən qanunauyğunluqlar və fərqli cəhətlər müşahidə olunur. Bunları nəzərə alaraq, şist nümunələrinin iki mərhələli quru distillə (piroliz) edilməsi labüd sayılır. Distillə prosesində aşağı temperaturda neftə oxşar (bitum) maddələrin, piroliz suyunun, temperatur artdıqca isə qazların miqdarının artması müşahidə olunur. Eyni temperaturda, sabit şəraitdə demək olar ki, kerogenin əsas strukturunun iri makromolekulları dəyişmir, toxunulmaz qalır. Aşağı və yuxarı temperaturda qaz əmələgəlmə prosesi qabarıq müşahidə olunur. Beləliklə, temperatur artdıqca axırıncı mərhələdə kömürləşmə ilə üzvi maddənin tamamilə parçalanması başa çatır. Laboratoriya şəraitində aparılan piroliz nəticəsində sınaqlardan alınan bitum, həmin süxurların neft və qazlılığına dəlalət edir.

Müxtəlif vulkanların (Veys, Quşçu, Pirəkəşkül, Qələndəraxtarma və s.) sınaqlarından temperaturu 500°C-yə qədər artırdıqda neftə oxşar maddə alınır (cədvəl 2). Bundan yuxarı temperaturda təkcə qazın alınması müşahidə olunur. Bəzi sınaqlarda üzvi maddə ilə yanaşı, qeyri üzvi maddənin də daha çox parçalanması müşahidə olunur. Neftə oxşar maddənin miqdarı daha çoxluq təşkil etdiyi sınaqlarda alifatik birləşmələrin miqdarı daha çox olur.

Temperaturun yüksəlməsi (>500°C) nəticəsində iri molekullu kerogen kiçik molekullu karbohidrogenlərə, qazlara və koks qalığına çevrilir. Aparılan tədqiqatları ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, temperaturun artması ilə qazların miqdarı artır, neftəoxşar maddələrin miqdarı tədricən azalır. 400°C temperaturda isə kəskin sıçrayış müşahidə olunur.

Beləliklə, tədrici temperatur artdıqca kerogenin kömürləşməsi prosesi müşahidə olunur. Bu proses bütün sınaqlar üçün demək olar ki, eynidir. Aşağı temperaturla alınan məhsulların miqdarının və destruktif parçalanma dərəcələrinin müxtəlif olmasına baxmayaraq, sonuncu etap oxşardır.

Cədvəl 2. Qobustanın palçıq vulkanlarının yanar şistli nümunələrinin iki mərhələli pirolizi

Vulkanlar	500-550 ºC			800-850 ºC		
	Piroliz suyu, %	Bitumun miqdarı, %	Qazların miqdarı, %	Piroliz suyu, %	Bitumun miqdarı, %	Qazların miqdarı, %
Şıxzərli	0,24	3,21	3,13	0,84	–	2,64
Pirəkəşkül	0,42	4,12	4,53	0,32	0,42	2,81
Veys	4,25	5,60	6,31	–	–	1,19
Quşçu	1,35	6,18	17,69	0,32	–	11,77
Çapılmış	0,12	1,20	24,0	1,27	–	2,81

Süleymanaxtarma	0,81	3,87	2,34	0,43	–	2,27
Qələndəraxtarma	0,25	4,15	2,12	0,33	–	2,11
Daşgil	1,80	3,12	7,01	–	–	0,80
Durandağ	2,78	3,38	4,17	–	–	1,30
Qotur	0,56	0,45	10,67	–	–	5,53

Alınmış məhsulların miqdarına görə yanar şistlərin tərkibindəki üzvi maddənin strukturu haqqında nəticə söyləmək olar. Bəzi vulkanlara aid olan yanar şistlərdən daha çox qətran alınır. Digər sahələrin yanar şistlərindən isə qaz və yüngül karbohidrogenlərin alınması müşahidə olunur. Beləliklə, sınaq nümunəsindən daha çox qətran alınarsa üzvi maddənin alifatik, az və yüngül karbohidrogenlər alınarsa aromatik strukturlu olması piroliz prosesi ilə də öz təsdiqini tapır.

Vulkanların yanar şistlərilə yanaşı, həm də neftli, nisbətən cavan süxurları (miosen yaşlı) geokimyəvi tədqiq edilmişdir. Ayrantökən, Solaxay və s. vulkanların bitum saxlayan süxurları xloroformla ekstraksiya edilməklə, bituma oxşar maddə alınmışdır. Alınan bu neftəoxşar maddənin sıxlığı 1,1 kq/m^3-dur. Əlbəttə, bu da təbii neftlərin xüsusi çəkisindən çoxdur. Bitumların tərkibinin əsas hissəsini asfaltenlər (42,52-47,15%) təşkil edir. Yağ fraksiyasının miqdarı 26, 86-37,96% təyin olunur (cədvəl 3).

Cədvəl 3. Qobustanın palçıq vulkanlarının neftli süxürlarının ekstraksiyasından alınan maddələr

Alınan maddələr, %	Palçıq vulkanları		
	Solaxay		Ayrantökən
	Cənub-qərb qanad	Şimal-şərq qanad	
Bitum	3,72	7,09	4,54
Su	1,20	0,27	1,21
Asfalten	46,0	47,15	42,52
Benzol qətranı	3,24	10,58	9,37
Spirt-benzol qətranı	14,38	15,12	10,14
Yağ	36,38	26,86	37,96
Kül	2,06	3,48	1,91

Yağ fraksaiyası ASK markalı silikagellə xoromotoqrafik təhlil olunmuş və alınan nəticələr göstərmişdir ki, bitumun tərkibinin əsas hissəsini monotsiklik karbohidrogenlər (56,0-75,50%) təşkil edir (cədvəl 4). Neftə oxşar maddələrdə metan-naften karbohidrogenləri aromatik karbohidrogenlərə (11,21-18,06%) nisbətən azdır. CaA seoliti vasitəsilə metan-naften fraksiyasında n. parafin karbohidrogenləri təyin edilmişdir. Öyrənilən fraksiyada parafin karbohidrogenlərinin miqdarı yox dərəcəsindədir.

Cədvəl 4. Qobustanın palçıq vulkanlarının bitumlarının fraksiya tərkibi

Qrup karbohidrogenlərin tərkibi	Palçıq vulkanları					
	Solaxay (cənub-qərb qanad)		Solaxay (şimal-şərq qanad)		Ayrantökən (cənub-şərq qanad)	
	Yağ, %	Bitum, %	Yağ, %	Bitum, %	Yağ, %	Bitum, %
Metan- naftenli	18,06	6,53	–	–	11,21	4,24
A r o m a t i k						
Monotsiklik	56,0	20,35	75,59	20,30	66,37	25,20
Bisiklik	4,52	1,65	4,03	1,08	9,0	3,42
Politsiklik	11,87	4,31	16,48	4,43	7,32	2,78
Aşağı molekullu qətran	9,70	3,53	3,90	1,05	6,10	2,32

Bundan başqa, şistli süxurların pirolizi nəticəsində alınan bitumların ağır fraksiyaları, ekstrakiya olunmuş bitumların eyni fraksiyaları ilə müqayisə olunmuşdur. Təhlillər göstərir ki, təxminən hər iki fraksiya bir-birinin analoqudur.

Ümumilikdə, prioliz prosesinin nəticələrini araşdırdıqda belə bir mətləbə gəlmək olar ki, bəzi vulkan (Çapılmış, Qotur və s.) tullantılarının yanar şistlərinin tərkibində olan kerogenin neft-əmələgəlmə prosesində inkişafı zəif, bəzilərinki (Quşçu, Veys, Pirəkəşkül, Qələndəraxtarma və s.) daha intensiv getmişdir. Belə ki, əgər pirolizin aşağı temperaturunda alınan bitumun miqdarı ikincilərdə daha çoxdursa, birincilərdə yox dərəcəsindədir. Qazların miqdarına gəldikdə isə Çapılmış vulkanında onlar daha çoxdur (24,0%). Vulkanların püskürmə fəaliyyətilə yer səthinə gətirilmiş şistli süxurların analizi göstərir ki, katagenez mərhələsində gedən ümumi proses, əsas üzvi maddənin yenidən dəyişməsi ilə başlamış, uzun alifatik C-C rabitəsinin pozulması ilə davam etmiş, üzvi maddə mineral hissədən ayrılmış və nəticədə kerogenin tədricən neft karbohidrogenlərinə çevrilməsi baş vermişdir.

Kerogenin İQ-spektri də onun neft asfaltenlərinə və kömürə oxşarlığını göstərmişdir. Buna görə də tam yetişmiş kerogenin pirolizi zamanı neft karbohidrogenləri əmələ gəlir. Laboratoriyada aparılmış ümumi tədqiqat nəticələrindən məlum olur ki, Çapılmış da daxil olmaqla bəzi vulkanların yanar şistlərinin kerogeni hələ tam yetişməyib.

Nəticə: Qobustanda palçıq vulkanlarının nisbətən az inkişaf tapdığı Mərkəzi Qobustanın 3,5-4,5 km qalınlığa malik eosen-miosenin kəsilişində mövcud olan yanar şistli süxurların (Veys, Pirəkəşkül və s. vulkanın tullantı süxurlarında rast gəlinən) geoloji-geokimyəvi analizləri bu zonanı daha çox şist qazının tədqiqi və gələcək mənimsənilməsi baxımından iqtisadi əlverişli edir.

Rayonda eosen-miosen yaşlı çöküntülərin daha böyük qalınlığı (11 km-dək) izlənilən Cənubi Qobustanda eosen və nisbətən maykop seriyası yanar şistlərinin (Daşmərdan, Süleymanaxtarma və s.) kerogenləri yetişdiyindən, onların karbohidrogen generasiya etmə ehtimalı daha perspektivli sayılır. Bundan başqa, tədqiqat obyektinin eyni yaşlı çöküntülərində öyrənilən yanar şistlərin tərkibindəki kerogendən alınmış (həlledicilərlə ekstraksiya və pirolizlə) bitumlarla, miosen yaşlı neftli süxurlardan alınmış bitumların ağır fraksiyalarının (alfaltenlər) müqayisəli təhlili göstərir ki, onlar tərkibcə biri-birinə yaxındır və ya genetik əlaqəlidirlər. Bu da, tədqiqat obyektində (xüsusən Cənubi Qobustanda) karbohidrogenlərin eosen və maykop çöküntülərində əmələgəlməsi (çox güman ki, həm də eosen yaşlı qranuliyar və çatlı rezervuarlarda toplanıb) və daha cavan miosen kollektorlarına miqrasiya etməsi fikrini doğruldur.

ƏDƏBİYYAT

1. Ад.А. Алиев, И.С. Белов, Т.А. Байрамов. *Горючие сланцы палеоген-миоцена Азербайджана*. «Геолог Азербайджана» «Научный бюллетень», 2003, № 8, с. 68-80.
2. В.Т. Гудзенко, А.А. Вареничев. *Горючие сланцы (информационно-аналитический обзор)*. Геология, геофизика и разработка нефтяных и газовых месторождений, Москва, 2014, № 9, с. 45-55.
3. В.В. Вебер. *Проблема нефтеносности палеогеновых и миоценовых слоев Кобыстана*. Тр. НГРИ, 1939, сер. А., вып. 110, 37 с.
4. Р.Г. Султанов. *Горючие сланцы юго-восточного Кавказа и геологические условия их распределения*. Фонд ИГА НА, 1948, 112 с.
5. П.Е. Воларович. *Нетфеносные районы Кирмаку-Бинагады*. Полезные ископаемые. М.: Недра, вып. 1976, 149, с. 189-208.
6. А.А. Али-заде, Г.А. Ахмедов, М.М. Зейналов. *Горючие сланцы миоцена Азербайджана*. АНХ, 1962, № 1, с. 5-8.
7. Ад.А. Алиев, И.С. Белов, Г-М.А. Алиев. *Горючие сланцы миоцена Азербайджана*. АНХ, 2000, № 5, с. 7-11.
8. О.Р. Аббасов. *Геолого-геохимические особенности горючих сланцев Гобустана (Азербайджан) и их прогнозные запасы*. Вестник Атырауского Института нефти и газа, Казахстан, 2008, №2 (14), с. 22-29.
9. O.R. Abbasov. *Oil Shale of Azerbaijan: Geology, Geochemistry and Probable Reserves*. IJRSSET - International Journal of Research Studies in Science, Engineering and Technology, India, 2015, Volume 2, Issue 10, p. 31-37.

10. Ад.А. Алиев, А.А. Байрамов. *Некоторые аспекты тектоники грязевулканических зон Гобустана*. Изв. АН Азербайджана, Науки о Земле, 2000, №1, с. 129-131.
11. О.Р. Аббасов, А.Н. Мамедова, А.Р. Гусейнов и др. *Некоторые новые данные геохимических исследований горючих сланцев Азербайджана*. Геология, геофизика и разработка нефтяных и газовых месторождений, Москва, 2. 2013, с. 32-35.
12. Ф.Р. Бабаев, О.Р. Аббасов, А.Н.Мамедова и др. *Изучение битумов Азербайджана*. Актуальные проблемы гуманитарных и естественных наук, Москва, 2013, ч.I, 7 (54), с. 40-42.
13. O.R. Abbasov, R.V. Akhundov. *Petroleum potential of Paleogene and Miocene deposits in Gobustan based on oil shale products of mud volcanoes.* Baku World Forum of Young Scientists, 2014, p. 27-28.
14. O.R. Abbasov, E.E. Baloglanov, R.V. Akhundov. *Geochemical analysis of oil shale and oil-bearing rocks of Gobustan mud volcanoes.* 6th International Conference of Young Scientists and Students "Multidisciplinary approach to solving problems of geology and geophysics", Baku, October 12-15, 2015, p. 118-119.
15. O.R. Abbasov, E.E. Baloglanov, R.V. Akhundov. *Organic compounds in ejected rocks of mud volcanoes as geological and geochemical indicators: a study from Shamakhi-Gobustan region (Azerbaijan)*. International Multidissiplinar Forum "Academic Science Week -2015". Baku, 2015, 02-04 November, p. 3-4.
16. O.R. Abbasov, A.C. Ibadzadeh, A.N. Mammadova. *Hydrocarbon generation potential of the deeper sediments of Azerbaijan.* Integrated approach for unlocking hydrocarbon resources, Baku, 2012, p. 48.
17. Abbasov O.R. *Distribution regularities of oil shale in Azerbaijan*. ISJ Theoretical & Applied Science, 2016, Volume 35, Issue 3, p. 165-171.

JOURNAL OF BAKU ENGINEERING UNIVERSITY - CHEMISTRY AND BIOLOGY
2017. Volume 1, Number 1 Pages 67-74

UOT 574.3: 633.1

BIOMORPHOLOGICAL FEATURES OF *AEGILOPS TAUSCHII* L. DISTRIBUTED IN DIFFERENT ECOLOGICAL CONDITIONS OF AZERBAIJAN

Mahammad ELDAROV

Genetic Resources Institute of the ANAS - Ave 155. Azadlıg AZ 1106,

Baku / AZERBAIJAN

eldarov87@hotmail.com

ABSTRACT

This article provides information about the expeditions conducted during 2009-2015 with the aim of studying the distribution of Aegilops tauschii species in different areas of the Azerbaijan Republic. Based on the previuos data in the literature, herbarium material and the monitoring carried out in the nature the eco-geographic data of Aegilops tauschii accessions were recorded. The environmental data (altitude, rainfall and temperature data) of collection areas are revealed. Also, a table for the determination of this species, its taxonomy and bio-ecological characteristics are presented. The priority names for this taxa on the basis of International Botanical Nomenclature, the basic synonyms, areas of distribution in the world, inclusive Azerbaijan are indicated.

Keywords: Azerbaijan, *Aegilops tauschii*, bioecology, taxonomy, subspecies, species distribution.

AZƏRBAYCANIN MÜXTƏLIF EKOLOJİ ŞƏRAİTİNDƏ YAYILMIŞ *AEGILOPS TAUSCHII* COSS. NÖVÜNÜN BİO-MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Məqalədə 2009 - 2015-ci illərdə Azərbaycanın Respublikasının müxtəlif ərazilərindən *Aegilops tauschii* növünün yayılması ilə bağlı təşkil olunmuş ekspedisiyalar haqqında məlumat verilmişdir. Ədəbiyyat, herbari materiallarının öyrənilməsi və təbiətdə aparılan monitorinqlər nəticəsində *Ae. tauschii* növünün ekoloji-coğrafi məlumatları qeyd olunmuşdur. Toplanma areallarının iqlim (dəniz səviyyəsindən hündürlüyü, yağıntının miqdarı və temperatur) göstəriciləri üzrə ekoloji məlumatları verilmişdir. Bu növün təyinedici cədvəli, sistematikası və bioekoloji xüsusiyyətləri haqqında məlumat göstərilmiş. Həmin taksonların Beynəlxalq Botaniki Nomenklatura əsasında prioritet adları, əsas sinonimləri, dünyada və o cümlədən Azərbaycanda yayılma arealları göstərilmişdir.

Açar sözlər: Azərbaycan,Aegilops tauschii, bioekoloji, sistemetik, növmüxtəlifliyi, yayılma.

БИОМОРФОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВИДА *AEGILOPS TAUSCHII* L. РАСПРОСТРАНЕННОГО В РАЗЛИЧНЫХ ЕКОЛОГИЧЕСКИХ УСЛОВИЯХ АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

В статье приводится информация об экспедициях, проведенных за 2009-2015 гг. в различных территориях Азербайджанской республики с целью исследования распространения вида ***Aegilops tauschii.*** На основе имеющихся литературных данных, гербарных материалов и мониторингов проведенных на природе были отмечены эко-географические данные вида ***Aegilops tauschii.*** Приведены экологические данные (высота над уровнем моря, количество осадков и температурные показатели) по ареалам сбора. Также приводятся таблица для определения этого вида, систематика и биоэкологические особенности. Указаны приоритетные названия этих таксонов на основе Международной Ботанической номенклатуры, основные синонимы, ареалы распространения в мире и, в том числе, в Азербайджане.

Ключевые слова: Азербайджан, ***Aegilops tauschii,*** биоэкология, систематика, разновидность, распространение.

Giriş

Aegilops tauschii Coss. (syn. *Ae. squarrosa* L., syn. *Triticum tauschii* (Coss.) Schmal. 2n = 14, DD) yumşaq buğdanın (*T. aestivum* L. em. Thell., 2n = 6x = 42, AABBDD) D genomunun əcdadı ol-

duğuna dair bir çox sübutlar vardır [21, 26]. *Aegilops* cinsinin mənşə mərkəsi orta şərq olmaqla diploid və poliploidləri əhatə edən 22 növdən ibarətdir [28]. Hazırda belə hesab olunur ki, buğdanın yaxşılaşdırılmasında *Ae. tauschii* –nin genofondu ən əhəmiyyətli genetic mənbə sayılır. Molekulyar müxtəliflik üzrə aparılan tədqiqatlar sübut etmişdir ki, bütün heksaploid buğda formaları D genomunun daşıyıcılarıdır [17].

Beləliklə, bu növün genetik müxtəlifliyi buğdanın adaptasiya və keyfiyyət göstəricilərinin yaxşılaşdırılması üçün geniş potensiala malikdir. *Aegilops tauschii*-nin yayılma mərkəzi Xəzər dənizinin Cənub və Qərbi olmaqla, bu növə Azərbaycanda, İranda, Türkiyənin Qərbində, Əfqanıstanın Şərqində və Çində rast gəlinir. Ədəbiyyat mənbələrində *Ae. tauschii*-nin müxtəlif forma və növaltılarının təsvirinin səbəbibu növüngeniş morfoloji variasiyaya malik olmasıdır. Eyiq [18]və daha sonralar Hammer[19] və Kilian[24]*Ae. tauschii*-nin2 növaltısını (ssp. *tauschii* və ssp. *strangulate* (Eig) Tzvel.) təsnif etmişdir. Həmçinin *Ae. tauschii* ssp. *tauschii*-inövaltısını 4 variasiyaya ayırmışdır:: var. *tauschii*, var. *meyeri* (Griseb.) Tzvel., var. *anathera* (Eig) Hammer və var. *paleidenticulata* (Gandilyan) Hammer. Bu növaltının diaqnostik xüsusiyyəti sünbülcüklərinin uzun və silindrik olmasıdır.Kihara və Tanaka [22]var. *tauschii* və var. a*nathera* arasında bir çox aralıq (intermadite form) formalar təsvir etmişdir. Onlar həmçinin *meyeri*-ni var. *tauschii* və var. *anathera* [28]arasındakı aralıq forma kimi təklif etmişlər. *Ae. tauschii* ssp. *strangulata* (Eig) Tzvelev növaltısı ssp. *tauschii*-ilə müqayisədə daha geniş polimorfizm nümayiş etdirir. Bu təsnifat van Slageren [28] və başqaları tərəfindən rəsmi olaraq təsdiq olunmamışdır. O bu bölgünü *Ae. tauschii*-nin müxtəlif formaları içərisində təsnifləşdirməyi üstün tutmuşdur. Qeyd etmək vacibdir ki, *Ae. tauschii* –nin növdaxili sistemləşdirilməsinə dair bu tip problemlər adətən bu növün Azərbaycan ərazisində rast gəlinən nümayəndələri ilə bağlıdır. Əminov və Əliyeva [2]qeyd edirlər ki, Azərbaycanda *Ae. tauschii* –nin növdaxili müxtəlifliyi və təkamülünün dərin və unikal təhlili tələb olunur. Hibridləşmə və buradan aralıq formaların əmələ gəlməsinə görə *tauschii* –nin fenotipik fərqliliyi hər zaman nəzərə çarpan deyildir [23, 17]. Bundan başqa göstərilir ki, *Ae. tauschii* –nin morfoloji variasiyaları molekulyar səviyyədə genetik müxtəliflik haqqında fikir söyləmək üçün istifadə oluna bilməz.

Tədqiqat işinin əsas məqsədi *Aegilops tauschii* növlərinə aid olan nümunələrin yayilmasinin mühit səraiti ilə əlaqəsini yoxlamaq və müxtəlif ekoloji ərazilərdə bu növlərin uyğunlaşma (adaptasiya) potensialını daha yaxsi basa düşməkdir. Həmçinin növün və onun formalarının ekoloji-coğrafi paylanmasi, onların toplanması, ekosistemin idarə edilməsi üçün informativ əhəmiyyət kəsb edir. Növün müxtəlif təbii forma və variasiyalarının öyrənilməsi və sistemləşdirilməsi kifayət qədər aktualdır. Bu baxımdan Azərbaycanda təbii sərvətlərin mühüm canlı hissəsi olan genetik biomüxtəlifliyin qorunması və davamlı istifadəsinə dair səmərəli və yeni istiqamətlərdə elmi tədqiqatlar aparılıması aktuallığı ilə diqqəti cəlb edir.

Tədqiqat metodu

Aegilops növlərinin mövcud vəziyyətinin (yayılması, ehtiyatları və s.) öyrənilməsi, toxum və herbari materiallarının toplanması məqsədilə Azərbaycanın müxtəlif bölgələrinə ezamiyyəyə gedilmiş və ekspedisiyalar təşkil edilmişdir. Tədqiqat zamanı fenoloji müşahidələrdən [3, 15] və ümumi qəbul olunmuş çöl geobotaniki üsullarından istifadə edilmişdir [8, 14]. Növlərin tədqiqi marşurut-kəşfiyyat üsulu ilə, ehtiyatının sıxlığı Krılova və Şreterin metodikalarndan [7] istifadə edilmişdir. Topladığımız toxum və herbari materialları "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsinə dair qanun, fərmanlar, qərarlar, qaydalar, əsasnamələr 2 və 3 saylı əlavələrinə əsasən aparılmışdır [1].

Məqalədəki marşrutlar üzrə göstərilən temperatur və yağıntının miqdarları DİVA-Gis kompüter proqramındakı iqlim göstəricilərinə əsasən verilmişdir. İşdə müqayisəli morfoloji, sistematik, botaniki və digər metodlardan istifadə olunmuşdur. Toplanılan materialların dəniz səviyyəsinə görə hündürlüyü, coğrafi eni və coğrafi uzunluğu Garmin eTrex 20 modelli GPS-lə ölçülmüşdür. Materialların işlənməsi, təhlili, təyini və digər kameral işlər laboratoriya şəraitində həyata keçirilmişdir. Toxum və herbari nümunələrinin təyini, nomenklaturası van Slageren [28], Hammer [19]Eyiq[18] və Jukovski[16] əsərlərinə görə verilir. Toplanılmış herbari nümunələri Azərbaycan MEA Genetik Ehtiyatlar İnstitutunun Herbari Fondunda. Toxum materialı qorunub saxlanılması üçün isə AMEA Genetik Ehtiyatlar İnstitutunun Milli Genbankına təhvil verilmişdir.

Tədqiqat işinin müzakirəsi və onun nəticələri

Aegilops tauschiiCoss., Not. Crit. 2: 69. 1849;

Жуковский, 1928, Тр. прикл. бот. ген. сел. 18.(1): 547; Eig, 1929, Feddes Repert., Beih. 55: 88; Невский, 1934, Фл. СССР 2: 671; Гроссг, 1939, Фл. Кавк: 351; Гроссг, 1949, Опред. раст. Кавк. : 719; Карягин, 1950, Фл. Азерб. 1: 335; Цвелёв, 1976, Злаки СССР 157; Hammer, 1980, Feddes Repert. 91: 59; Мусаев, 1991, Злаки Азерб. : 49; Цвелёв, 2006, Консп. Фл. Кавк. 2 : 261; Əminov və Əliyeva, 2012, *Ae*.və *Tr*. cins. ara. qarş. gen. mün. :183;

Sinonim: *Ae. squarrosa* auct. non L. (1753); *Triticum tauschii* (Cosson) Schmalh., Fl. Mittl. Sudl. Russl. 2:652 (1897). Ic: Feddes Rep. Beih. 55: t. 4 f. d (1929), as *Ae. squarrosa* L.; Kulturpflanze 28:75, t. 12 (1980).

Morfoloji - diaqnostik xüsusiyyətləri: Birillikdir, çöxgövdəlidir, gövdələri 15 - 45 sm uzunluğundadır. Sünbülləri 4-10 sm uzunluğunda olub, ensiz silindrikdir, 5-13 sünbülcüklüdür, adətən, rudimentar sünbülcükləri olmur. Sünbülcük pulcuğunun yuxan kənarı kəsilmiş və qalınlaşmışdır, iti ucluğa malikdir. Alt çiçək pulcuğunun təpəsində iti ucluq vardır ki, o da uzunluğu 4 sm olan qılçığa çevrilir. Birinci və ikinci çiçəklər qılçıqlı olduqda, üçüncü çiçək də qısa qılçığa malik olur. Təpə sünbülcüyünün alt çiçək pulcuğunun qılçığı 5,5 sm-ədək uzunluqda olub, 1-2 yan dişciyə malikdir, ya da heç dişciyi olmur. Dənləri çiçək pulcuqlarına bitişikdir. Xromosom 2n=2x=14, Genomu **D.** May ayında çiçəkləyir -İyun (İyul) aylarında toxum verir.

Növdaxili taksonların fərqləndirilməsi üçün bizim tərəfmizdən aşağıdakı əlamətlər istifadə edilmişdir:

- sünbülcüyün forması;
- sünbülcük pulcuğunun yuxarı kənarının quruluşu;
- sünbülcük pulcuğunun uzunluğunun eninə nisbəti;
- sünbülcük pulcuğunun səthinin xarakteri;
- sünbülün qılçıqlılığı;
- rudimentar tilin olması;
- çiçək pulcuqlarının uzunluğu;
- sünbülcük pulcuqlarının rəngi;

Növmüxtəliflərinin təyinedici cədvəli

1. Sünbüllər təshebvaridir, sünbülcüklər doludur, qabarıqdır; sünbülcük pulcuqlarının uzunluğu onların eninə bərabər və yaxud bir az böyükdür .....**subsp. *strangulata*** (Eig) Tzvel.

2. Sünbül silindrikdir, sünbülcüklər uzunsov – silindrikdən tutmuş zəif şişkin olurlar; sünbülcük pulcuqlarının uzunluğu enlərini əhəmiyyətli dərəcədə ötür..... .....**subsp. *tauschii***

2.1. Sünbülcük pulcuqlarının kənarları enli dişiciklidir, sünbülün ucunda qılçıqlıdır, rudiment halda til mövcuddur.....**var. *paleidenticulata*** Gandiljan (Hammer)

2.2. Sünbülcük pulcuqlarının kənarları qalınlaşmış, hamar və yaxud dalğavaridir, bəzən bir neçə enli dişciklidir; Sünbül və sünbülcüklər nazikdirlər (4-8 sünbülcüklü), sünbülcüklər uzunsov-silindrikdir, sünbüldəki sünbülcüklər müqayisədə azdır.....**var. *meyeri*** (Griseb.) Tzvel.

2.3. Sünbülcük pulcuqlarının kənarları qalınlaşmış, hamar və yaxud dalğavaridir, bəzən bir neçə enli dişciklidir; Sünbüllər daha güclü, sünbülcüklər iridirlər. Çiçək pulcuqları qılçıqsızdır.....**var. *anathera*** (Eig) Hammer

2.4. Sünbülcük pulcuqlarının kənarları qalınlaşmış, hamar və yaxud dalğavaridir, bəzən bir neçə enli dişciklidir; Sünbüllər daha güclü, sünbülcüklər iridir; Çiçək pulcuqları qılçıqlıdır.....**var. *tauschii***

2.4.1. Pulcuqlar əsasən ağ rənglidir.....**f. *tauschii***

2.4.2. Pulcuqlar əsasən qırmızımtıl rənglidir.....**f. *ferruginea*** (Popova) Hammer

2.4.3. Pulcuqlar əsasən qəhvəyi rənglidir.....**f. *brunnea*** (Popova) Hammer

2.5. Bitki xırda ölçülü, 2-3 gövdəli olur; hər sünbül 2-3 sünbüllüdür; Sünbülün uzunluğu 40 mm – dən çox olmur, sünbülcüyün uzunluğu 4 mm və eni isə 2-2.5 mm olur; Sünbülün əsasında 2 rudumentar sünbülcük yerləşir.....**var. *salinum*** Zhuk.

Aegilops cinsinin sistematikasının uzun öyrənilmə tarixinə baxmayaraq, Ae. tauschii yarımnövlərinin konstitusiyası hələ də tam aydın öyrənilməmişdir. Eyiq[18] növ daxilində iki yarımnöv ayırd etmişdir: subsp. strangulata Eig (sünbülləri muncuq düzümünə bənzəyir) və subsp. eusquarrosa Eig (= subsp. tauschii Hammer) (sünbülləri silindrikdir). Lakin bu yarımnövlər arasında çoxlu aralıq formalar da mövcuddur ki, onlan bu yarımnövlərdən hər hansı birinə aid etmək mütəxəssislər üçün xeyli çətinlik törədir [20, 25]. Yaaska[21] subsp. strangulatanın morfoloji cəhətdən çox müxtəlif olub, Şərqi Ermənistan, Azərbaycan (o cümlədən, Naxçıvan), Şimali İran və Türkmənistanda (Şərqi Kopetdağ) geniş yayıdığını göstərmiş, Tanaka [27] həmin yarımnövə yalnız sünbülləri aydın şəkildə muncuq düzümünə bənzəyən və İranın Hirkan deyilən ərazisi yaxınlığında Xəzər dənizinin cənub-şərq sahilləri boyunca məskunlaşan bitkiləri aid etmişdir.

Tauşi buğdayıotu demək olar ki, bütün Azərbaycanda yayılmışdır, müxtəlif dövlərdə ekspedisiyalar nəticəsində Azərbaycanın ayrı-ayrı bölgələrindən toplandığına dair məlmatlar mövcuddur. Dəniz səviyyəsindən aşağıda yerləşən yarımsəhradan (Abşeron) başlayaraq, Arandan tutmuş orta dağ qurşağına qədər demək olar ki, bütün rayonlarda rast gəlinmişdir. Böyük Qafqaz və Talış dağlarının döşünədək bütün müşahidə aparılmış rayonlarda geniş yayılmışdır. *Ae. tauschii*Azərbaycanda quru təpələr olan hər yerlərdə və rütubətli iqlimi olan yerlərdə daha çox yayımışdır. Adətən, dənli bitkilərin əkin sahələrinin kənarında təsadüfi hallarda isə tarlanın içərisinə girir.

Sxem 1. Aylar üzrə temperatur, coğrafi enlik və coğrafi uzunluq, yağıntının miqdarı və dəniz səviyyəsindən hündürlük göstəriciləri



Maximum temperatur göstəricisi **(T_{max})**
Minimum temperatur göstəricisi **(T_{min})**
Aylar üzrə yağıntının göstəricisi **(mm)**

Ekspesisyalarımız nəticəsində Azərbaycanda bu növün (*Bakı, Qobustan, Şamaxı, Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Zaqatala, Xızı, Siyəzən, Şabran, Quba, Qusar, Xudat, Lənkəran, Lerik, Masallı, Cəlilabad, Yardımlı, Naxçıvan-Babək, Şahbuz, Culfa, Ordubad, Ağcəbədi, Gəncə, Tovuz, Şəmkir, Ağstafa*) rayonları üzrə müxtəlif forma və variasiyalara aid toxum və herbari toplanılmışdır. Səhra və yarımsəhrə formasiyalarından, bağlardan, yolların ətrafında və dincə qoyulmuş torpaqlardan toplanmışdır.

x:48.97006 y:41.20427 alt:137
worldclim_2-5m

	T*min*	**T*max***	**Rain**
Jan	-1.4	5.5	27
Feb	-1.2	5.1	26
Mar	1.7	8.9	29
Apr	7	16.5	46
May	12.2	21.5	43
Jun	16.7	26.8	30
Jul	19.8	30	20
Aug	18.8	38.9	20
Sep	15.4	24.8	32
Oct	9.7	18.1	45
Nov	5.7	12.5	35
Dec	1.1	7.8	29
Year	**8.8**	**18.0**	**382**

Şəkil 1.*Ae. tauschii* **var. *salinum*** Zhuk.

Tədqiqat ərazilərindən (marşrutlar üzrə) toplanılan *Ae.tauschii* növlərinin iqlim göstəriciləri əsasında ekoloji qiymətləndirməsi zamanı *Min* hündürlük üzrə Xudat rayonu, Nabran və Müxdədir kəndi(-15 m) və *Max* hündürlük üzrə Naxçıvan, Ordubad rayonu Tivi kəndi ərazisində (1941 m) müəyyən edilmişdir. Orta illik yağıntının miqdarına görə *Ae.tauschii* növləri *Min* yağıntı üzrə (274 mm) Bakı, Qurd qapısının yanı ərazisindən, *Max* yağıntı üzrə isə (997 mm) Lənkəran şəhərindən toplanıımışdır. Ən soyuq temperatur yanvar ayı üzrə Min_1 – Mistan kəndindən(-8.4 ^{o}C), ən isti temperatur Max_7 iyul ayında Babək rayon ətrafı (34.3 ^{o}C) müşahidə olunur. *Min* orta illik temperatur Mistan kəndində müşahidə olunur(7.0 ^{o}C), *Max* orta illik Ağstafa, Xətai kəndi; Şəki, Küdürlü kəndi; Masallı, Sərcuvar kəndi və Masallı, Musaküçə kəndində(14.2^{o}C) olmuşdur. Məlum olmuşdur ki, müxtəlif hündürlük, yağıntının miqdari, orta illik temperaturdan asılı olaraq *Aegilops* növlərinin yayılma arealları fərqlidir.

Qeyd etməliyik ki, yalnız Qobustan rayonundan *Ae. tauschii* **var. *salinum*** Zhuk. Toplanılmışdır (Şıkil 1.) *Sxem 1*-də isə bu marşrutun aylar üzrə temperatur, coğrafi enlik və coğrafi uzunluq, yağıntının miqdarı və dəniz səviyyəsindən hündürlük göstəriciləri göstərilmişdir.

Beləliklə, tədqiqat zamanı topografiq göstəricilər olan əsas iqlim tipləri qeyd olunmuş və müəyyən edilmişdir ki, *Ae.tauschii* növləri 11 iqlim tipindən 7 sində (1.*Qışı mülayim, yayı quraq isti keçən yarımsəhra və quru-çöl iqlimi; 2.Qışı soyuq, yayı quraq isti keçən yarımsəhra və quru-çöl iqlimi; 3.Qışı quraq keçən mülayim-isti iqlim; 4.Yayı quraq keçən mülayim-isti iqlim; 5.Yağıntıları təxminən bərabər paylanan mülayim-isti iqlim; 6.Yayı quraq keçən soyuq iqlim; 7.Qışı quraq keçən soyuq iqlim;***)** rast gəlinmişdir. Bizim tədqiqatların nəticəsinə görə yağıntının miqdarı çox olan yerdə *Aegilops*ların yayılma miqdarı azalır. Bu onların kserofit və mezo-kserofit bitkilər olması ilə əlaqədardır. Həmçinin qeyd olunmuş torpaq tipləri əsasında belə qənaətə gəlmək olar ki, *Çimli dağ-çəmən; Bozqır dağ-çəmən; Qonur dağ-meşə; Sarı-qonur dağ-meşə; Qəhvəyı dağ-meşə; Dağ-boz qəhvəyi; Dağ-şabalıdı (boz-qəhvəyı); Psevdopodzollu-sarı; Şabalıdı (boz-qəhvəyi); Boz-çəmən; Boz-qonur; Çəmən-meşə, tuqay;* torpaqlarda bu növ daha geniş yayılmışdır.

Adətən növ egilopsun digər növləri ilə birlikdə rast gəlinir. Lakin təkcə bir *Ae. tauschii* növü özündə birləşdirən fitosenozlar tapmaq mümkündür. Azərbaycanda *Ae. tauschii* eyni arealda

bitən bütün egilops növləri birdən yeddiyə qədər populyasiyada tapılmışdır. Adətən bunövü *Ae. cylindrica* və *Ae. triuncialis* ilə birlikdə və ya onlardan biri ilə tapmaq mümkündür. Xüsusilə aranda və dağətəklərində daha çox bitir.

ƏDƏBİYYAT SİYAHISI

1. Əkpərov Z.İ. (2014) Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsinə dair. Qanun, fərmanlar, qərarlar, qaydalar, əsasnamələr. Bakı – "Təknur" nəşriyyatı. 168 səh.
2. Əminov N.X., Əliyeva A.C. (2012) Aegilops L. və Triticum L. cinsləri arasında qarşılıqlı genetik münasibətlər. Bakı: Elm, 480 səh.
3. Бейдеман, И. Н., & Галазий, Г. И. (1974). Методика изучения фенологии растений и растительных сообществ. Наука, Сибирское отд-ние
4. Гроссгейм, А. А. (1939). Флора Кавказа (Vol. 2).
5. Гроссгейм, А. А. (1949). Определитель растений Кавказа. Советскаиа Наука.
6. Карягин И.И. (1950) Флора Азербайджана. Том 1. Polypodiaceae. Баку: Изд-во АН Азербайджанской ССР. — 370 с.:
7. Крылова, И. Л., & Шретер, А. И. (1971). Методические указания по изучению запасов дикорастущих лекарственных растений. М.: ВИЛР, 31.
8. Лавренко, Е. М. (2013). Полевая геоботаника. Рипол Классик
9. Мусаев, С. Г. (1991). Злаки Азербайджана. Баку: Элм.
10. Невский, С. А. (1934). Ячменевые. Hordeeae. Вл Комаров (гл. ред.), Флора СССР, 2, 590-728.
11. Флоры Кавказа, К. (2006). Отв. ред. Тахтаджян АЛ–С-Пб.: Изд-во Санкт-Петербургского университета, 347-356.
12. Цвелев, Н. Н. (1971). Заметки о злаках флоры СССР. Новости сист. высш. раст, 8, 65-66.
13. Цвелев, Н. Н. (1976). Злаки сссР. Рипол Классик.
14. Шенников, А. П. (1938). Методика геоботанических исследований лугов и луговых пастбищ. Методика полевых геоботанических исследований.-М.-Л.: Изд. АН СССР, 87-112.
15. Шульц, Г. Э. (Ed.). (1966). Методы фенологических наблюдений при ботанических исследованиях. Наука.
16. Жуковский П. М. (1928) Критико-систематический обзор видов рода Aegilops L. //Тр. по прикл. бот. ген. и селек.. Т. 18. № 1. С. 417-609.
17. Dvorak, J., Luo, M. C., Yang, Z. L., & Zhang, H. B. (1998). The structure of the Aegilops tauschii genepool and the evolution of hexaploid wheat.Theoretical and Applied Genetics, 97(4), 657-670.
Efirləşmə	stirol – divinilbenzol matrisalı sulfokationitlər: (Daueks – 50, KU-2,KU 2- 8,amberlist – 15 , KU – 23) [1,24]	2014

Cədvəldən göründüyü kimi uzun illər ərzində həm homogen, həm də heterogen katalitik sistemlərdən istifadə etməklə KPK-nin müxtəlif çevrilmələri həyata keçirilmişdir. Bu sistemlərin özünə məxsus üstünlükləri və çatışmayan cəhətləri vardır. Son zamanlar neft-kimya, üzvi sintez, elektrokimya və digər sahələrdə "Yaşıl kimya"nın əsas müddəaları sırasına daxil edilmiş ion mayeləri (İM) xüsusi əhəmiyyət kəsb edir. İM sistemləri KPK üçün də xüsusi maraq kəsb edir.

Məlumdur ki, ilk ion mayesinin (etilammonium nitrat - $[EtNH_3][NO_3]$) kəşfi XIX əsrin ortalarına təsadüf edir. Turş tetraxloralüminat ion mayesi ilə ilk üzvi sintez - Fridel – Krafts alkilləşmə reaksiyası aparılmışdır. İM bir çox üzvi reaksiyalarda həlledici kimi istifadə olunur. Əksər hallarda İM ərimə nöqtəsi 100^{o}C-dən az olur,ekoloji cəhətdən üstün texnologiyalarda uçucu üzvi həlledicilərə əla alternativ əvəzedicidir. İM çox aşağı buxar təzyiqinə, termiki və kimyəvi stabilliyinə, maye kristal quruluşa, katalitik təsir etmə qabiliyyətinə, korroziya törətməyən (metal ərintilərində karroziyadan qoruyucu kimi istifadə olunur) və s. xassələrinə görə "yaşıl" texnologiyalarda geniş tədqiq olunur. İM (bio)katalizdə, üzvi reaksiyalarda, nano hissəciklərin sintezində və s. geniş istifadə olunur. Elektrolit kimi yanacaq elementlərində, sensorlarda, batareyalarda, metalların cilalanmasında, örtüklərdə, maye kristal kimi ərintilərdə, elektroelastik material kimi süni əzələlərin yaradılmasında, robot sənayesində tətbiq olunurlar. İM həmçinin sürtkü yağı və aşqar kimi tədqiq olunur. İstiliyi saxlama qabiliyyətinə görə termal mayelərdə, ayrılma qabiliyyətinə görə qaz ayrılmasında, ektraksiyada, ekstraktiv distillədə, membranlarda və s. istifadə olunurlar. İM parçaların quru təmizlənməsində tətbiq olunmuşlar. Dünya üzrə su ehtiyatının tükəndiyi bir dövrdə sudan istifadə etmədən təmizləyici qabiliyyətli İM istifadəsiinqilabi yenilik olmuşdur. Hal-hazırda İM təmizləyici vasitə kimi istifadə edilə bilən xüsusi gel əldə olunmuşdur [25-28]. İM tədqiqat obyektlərini saymaqla bitmir və hal-hazırda onlar geniş öyrənilir. İM təkrar istifadə imkanına malik olması çox vacibdir. Hal-hazırda qeyri-toksiki, asanlıqla bioparçalanan, suda həllolan İM mövcuddur. Bir çox reaksiyalarla bərabər KPK-nin oliqomerləşməsi, alkilləşməsi, efirləşməsi, izomerləşməsi kimi müxtəlif çevrilmələrində İM demək olar ki, əvəzsizdir [29].

Təsadüfi deyil ki, ion mayelərinin ilk sənaye tətbiqi olan "Difasol" prosesi (İM tətbiq olunmayan "Dimersol" prosesinin alternativi) KPK xammalından istifadə etməklə əsasən oliqomerləşmə və izomerləşmə proseslərinə aid edilmişdir. Mənbələrdə [30-33] aşağı olefinlərin İM mühitində keçid metalların əsasən də nikelkomplekslərin katalitik təsiri altında dimerləşməsi və oliqomerləşməsi geniş işıqlandırılmışdır. Burada Fransa neft institutunun (FNİ) əməkdaşları tərəfindən propilenin dimerləşməsi istiqamətində aparılan işləri qeyd etmək olar. Burada əsasən butenlərin zəif turşxloralüminat təbiətli İM iştirakı ilə izooktenlərə dimerləşməsi nəzərdə tutulmuşdur. Proses nikel katalitik kompleksinin iştiraki ilə aparılır. Bu proses C_3 və C_4 karbohidrogenlərinin 40-60^{o}Ctemperaturda, 1,5 MPatəzyiqdə, 5-10 saat müddətində izohek-

senlərə və izooktenlərə dimerləşməsi ilə başa çatır. Qarışdırıcı ilə təchiz olunmuş ardıcıl reaktorda həlledicisiz və yaxud aromatik və ya halogenləşmiş karbohidrogen həlledicisi iştirakında iki komponentli katalizatorun (tərkibində Ni saxlayan kompleks+ Al üzvi birləşmə) təsiri altında həyata keçirilir. Bu zaman oktenlərə görə selektivlik 85%, n-butenin konversiyası 80% təşkil edir. Geniş surətdə tətbiq edilən "Dimersol" prosesində katalizatorun məhsuldan ayrılması problem sayılır [30,səh.5],[31,səh.5],[33,səh.5]. "Difasol" prosesi "Dimersol" prosesinin daha proqressiv variantıdır. Bu prosesdə dimerlərə görə selektivlik xeyli yüksəkdir (90-95%). Bu hal monomerlərin və onların dimerlərinin İM – də müxtəlif həllolma qabiliyyəti ilə izah olunur. "Difasol" prosesində konversiya dərəcəsi, hətta, durulaşmış xammaldanistifadə edildikdə belə yüksək olur və 70-80 % təşkil edir. Son məhsullar İM –də həll olmayıb, üst fazada ayrıca toplaşır və İM – dən asanlıqla ayrılır [30,səh.5],[32,səh.5]. Ni tərkibli katalizator İM fazada olur. Nəticədə son məhsulların təmiz halda ekstraksiyası və İM resilkulyasiyası asanlaşır. "Difasol" prosesində katalizatorun məhsuldarlığı "Dimersol" prosesinin ilkin variantından yüksəkdir. Nəticədə, katalizatorun sərfi və itkisi xeyli aşağı olur [31,səh5],[33,səh.5].

Nobel laureatlı *Yves Chauvin* və *Helene Olivier-Bourbigou* tərəfindən tərkibində Ni-saxlayan katalizatorlar iştirakında dimerləşmə reaksiyası üçün həlledici kimi xloraluminat tipli ion mayesindən istifadə edilmişdir və proses yuxarıda qeyd olunduğu kimi ilkin olaraq FNİ-da aparılmışdır. Katalizatorun aktivliyi həlledicisiz və ənənəvi həlledici sistemlərin hər ikisinə nəzərən daha yüksək olmuş və arzu olunan dimerlər üçün selektivlik artırılmışdır. "Difasol" prosesi kimi patentləşdirilmiş bu proses FNİ-nin iştirakilə "Axens" Şirkəti tərəfindən tətbiq olunmuşdur [33]. Həmçinin "Difasol Standalone" prosesi də işlənib hazırlanmışdır. Bu prosesdə əsas məqsəd xloralüminat ion mayelərini su, spirt, nitrillər, asetonitril, propilnitril, aproton həlledicilər, sadə efirlər, merkaptanlar, (di)sulfidlər kimi qarışıqlardan qorumaqdır. Bu prosesdə oktenlər ən yüksək selektivlik ilə alınır [30,səh.5],[33,səh.5].

İM daha bir sənaye tətbiqi birbaşa KPK-nın çevrilməsi üçün işlənib hazırlanmış "İonikylation" prosesidır və hal-hazırda Çində tətbiq olunur. Bu prosesdə KPK-nin alkilləşməsi üçün kompozit ion mayelərindən istifadə olunur. İzobutanın butilenlər ilə alkilləşməsi üçün turş xloralüminat tipli ion mayesi seçilmişdir. Araşdırmalar göstərmişdir ki, alüminiumxlorid – dialkil efir kompleksinə aromatik karbohidrogenlər və metal xloridlər əlavə olunduqda tetrametilpentan (TMP) üzrə selektivlik artır. Müəyyən edilmişdir ki, metal xloridlər alkilləşmə reaksiyası üçün katalizatorun turşuluğunu artırır və izomerləşmə və krekinq kimi arzuolunmaz əlavə reaksiyaları ləngidir. Aromatik karbohidrogen və mis xloridin (CuCl) ion mayesinə əlavə olunması ilə TMP-nin çıxımı artır. Prosesin çatışmayan cəhəti odur ki, CuCl alüminiumxlorid-dialkilefir kompleksinə əlavə olunduqda, ayrılması və davamlı axın sistemində təkrar istifadəsi çətin olan xırda suspenziyaların formalaşması ilə müşahidə edilir [35].

İM sənaye tətbiqinə bariz misallardan biri kimi BASF Şirkətinın turşu məhsullarını kimyəvi qarışıqlardan təmizləmək üçün otaq temperaturlu ion mayelərindən istifadə etdiyiprosesdır [36].

İon mayelərinin yuxarıda qeyd olunan sənaye prosesləri onların KPK-nin müxtəlif çevrilmələri, o cümlədən alkilləşmə, oliqomerləşmə, izomerləşmə, efirləşməsi üçün nə qədər yararlı olduğunu bir daha sübut edir. KPK-nin müxtəlif çevrilmələri üzrə aparılan elmi tədqiqat işləri aşağıda daha geniş verilmişdir.

Əksər hallarda $AlCl_3$ tərkibli modifikasiya olunmayan xloralüminat ərintiləri KPK oliqomerləşməsində qeyri-selektiv katalizator hesab olunurlar. *Matthias Dötterl* öz araşdırmalarında müəyyənləşdirmişdir ki, donor effektli trifenilamin, trifenilfosfin, trifenilbismutun əlavə olun-

ması ilə oliqomerləşmə və polimerləşmə reaksiyaları üçün tərkibində Ni-saxlayan nisbətən ucuz və havada stabil ion mayelərini sokatalizator kimi istifadə etmək olar. Xüsusilə trifenilbismut müvafiq xloralüminat ərintilərini və həmçinin müxtəlif turşuluğa malik kompozisiyaları buferləşdirmək qabiliyyətinə malikdir. Trifenilbismut ilə buferləşmiş sistemlərin propenin dimerləşmə prosesində məqsədli məhsulun çıxımını 96 % artırdığı müəyyənləşdirilmişdir. Aşağı ərimə qabiliyyətinə, yüksək Lüis turşuluğuna malik kompozisiyalara bufer məhlulların əlavə edilməsi bir çox hallarda propenin dimerləşmə prosesində məqsədli məhsulun çıxımını 90 % artırdığı müəyyənləşdirilmişdir [31,səh.5],[32,səh.5].

Məlumdur ki, bir sıra izoparafinlərin (iC_3-iC_6) aşağı olefinlərlə turş ion maye katalizatorları iştirakında alkilləşmə reaksiyası zamanı yüksək oktanlı və ekoloji əlverişli benzin almaq mümkündür. Aparılan tədqiqatlarda 2-buten və izobutenin 1-butenə nəzərən alkilləşməsində daha yüksək keyfiyyətli alkilatların alındığı təsdiq olunmuşdur [37].

Kompozit ion mayeləri izobutanın 2-buten ilə maye fazada alkiləşməsi üçün turşu katalizatoru kimi sınaqdan keçirilmişlər. Aluminium xlorid əsaslı ion mayelərinə mövcud metal xloridlərin əlavə olunması ilə izobutanin alkilləşməsi aparılmışdır. Bu tədqiqatlarda yeni kompozit ion mayeləri trimetilamin hidroxlorid, aluminium-3-xlorid və mis-1-xloridin istifadəsi ilə hazırlanmışdır.Əsas məhsul kimi trimetilpentan alınmışdır. Alkilləşmə reaksiyalarında kompozit anionlardan istifadə olunması alkilatin keyfiyyətini yaxşılaşdırmaq üçün vacib rol oynamasıdır[38].

İM alınmasında alkil halogenid kimi alkil bromid, alkil xlorid, alkil yodidlərdən istifadə edilmiş və KPK-nin alkilləşməsi aparılmışdır. İzobutanın butenlə xloralüminat İM mühitində alkilləşməsi üçün 1-butil xlorid, 2- butil xlorid, dördlü butil xlorid və bunların qarışığından istifadə olunmuşdur. Metal halogenidlər (NaCl, LiCl, KCl, $BeCl_2$, $CaCl_2$, $BaCl_2$, $SrCl_2$, $MgCl_2$, $PbCl_2$, CuCl, $ZrCl_4$ və AgCl) katalitik aktivliyi və selektivliyi dəyişdirmək üçün istifadə olunmuşdur [37,səh.6].

İM katalitik aktivliyinin artırılması üçün sokatalizator kimi xlorid turşusu və hər hansı Brensted turşusundan istifadə olunmuşdur. *Howard Lacheen* və başqaları tərəfindən n-butil piridinium xloralüminat İM-dən istifadə etməklə izobutanın C_3-C_5 olefinlər ilə alkilləşmə reaksiyası xüsusi reaktorda "tank reactor" aparılmışdır. Qarışığa İM ilə birgə HCl əlavə olunur. Burada olefinin 100% çevrilməsi müşahidə olunmuşdur [39].

Xing Xue Qi və başqaları trietilammoniumxlorid və $GaCl_3$ əsaslı ion mayesindən istifadə etməklə izobutanın alkilləşməsini aparmışlar. Bu İM- nin Lüis turşuluğu xloralüminat tipli İM-nə nəzərən daha yüksək olduğu üçün onlar daha perspektivli hesab edilirlər. Mis halogenidin cüzi miqdarda $GaCl_3$-əəlavə olunması ilə ([Et_3NHCl]-$GaCl_3$-CuCl) alkilləşmə prosesinin aktivliyi daha da artmışdır. TMP görə selektivlik 70%-ə qədər, nəzəri oktan ədədi isə 91.3 olmuşdur [40].

Jie Zhang və başqaları izobutanın butenlə alkilləşməsində katalizator kimi 1-butil-3-metilimidazoliumxlorid alüminium-3-xlorid ion mayesindən istifadə etmişlər. Butil tio-spirtin və etil tioefirinin əlavə olunması ilə alkilləşmə reaksiyasının sürəti artmışdır [41].

İzobutanın 2-butenlə alkilləşməsi reaksiyasnda Lüis turşu tipli xloralüminat İM katalizatorlarının aktivliyi və selektivliyinə müxtəlif promotorların təsiri araşdırılmışdır. Göstərilmişdir ki, bu zaman kation tipli aktiv mərkəzlər, xüsusilə üçlü butil kationları əmələ gəlir. Bu kation bərk turşu Brensted sistemlərində olduğu kimi 2-butenin izobutan ilə qarşılıqlı təsiri zamanı alınan aralıq məhsuldan protonun qoparılması ilə regenerasiya olunur [42].

Izobutanın 2-butenlə SİLP (səthə çəkilmiş ion maye fazası) katalizatoru ilə alkilləşməsi FNİ tərərfindən patentləşdirilmişdir. Bu katalizator silisium oksidinin imidazolium və ya piridinium kationlu xloralüminat ion mayeləri ilə hopdurulması ilə alınmış və yüksək aktivlik göstərmişdir [43].

1-n-oktil-3-metilimidazolium bromid və aluminium xlorid ([OMIM]Br-$AlCl_3$) əsaslı ion mayesindən istifadə etməklə izobutanla 2-butenin alkilləşməsi aparılmışdır. İon mayelərinin turşuluğu su, turş kation mübadilə qatranları və 1-(4-sulfobutil)-3-metilimidazolium hidrogensulfatın [(HO_3SBu)MIM]HSO_4 əlavə olunması ilə bərpa olunmuşdur [44].

Izobutanın C_3-C_5 olefinlərlə alkilləşməsi üçün turş ion maye katalizatoru kimi BF_4^-, PF_6^- SbF_6^- or NTf_2^- anionlu və turşu tərkibli dördlü ammonium əsaslı ion maye katalizatrolarından istifadə olunmuşdur. Metal triflatlar, triflüoroetanol, PPh3 tərkibli müxtəlif qarışıqların əlavə edilməsi ilə katalitik qabiliyyətin artırılmasına nail olunmuşdur. C_8-karbohidrogenləri üzrə selektivlik 90% artırılmış və alınan məhsulların nəzəri oktan ədədi 98 olmuşdur [45].

Məlumdur ki, izobutenin 2-buten ilə alkilləşmə prosesi 1-butenə nəzərən daha əlverişlidir. Belə ki, birinci halda oktan ədədi yüksək olan TMP, ikinci halda isə dimetilheksan alınır. Bu baxımdan alkilləşmə reaksiyasından əvvəl 1-butenin 2-butenə izomerləşməsini aparmaq daha məqsədəuyğundur [37,səh.6].

İM iştirakında oliqomerləşmə reaksiyası üzrə bir çox tədqiqat işləri aparılmışdır. Bu sahədə *Shimin Liu* və digərləri tərəfindən izobutenin trimerləşməsi üzrə uğurlu tədqiqatlar aparılmışdır. Onlar KPK xammalından istifadə edərək, xloralüminat tipli ion mayelərini silisium oksidi üzərinə hopdurmaqla izobutenin oliqomerləşməsini aparmışlar. Burada səthə çəkilmiş katalizatorlar arasında silisium oksidi uzərinə çəkilmiş xloralüminat tipli ion mayeləri daha yüksək katalitik aktivlik göstərmişdir. Fotoelektron spektroskopiyası (X-ray photoelectron spectroscopy-XPS) və differensial izləyici kalorimetriya (differential scanning calorimetry-DSC) vasitəsilə müəyyən olunmuşdur ki, izobutenin oliqomerləşməsi üçün yüksək katalitik aktivlik İM-lərininsilanol qrupları ilə güclü qarşılıqlı təsiri, Al_2Cl_7 anionu və silisium oksidinin birgə sinergetik effekti ilə izah edilir. Optimal temperatur, reagentlərin qatılığı, verilmə sürəti müəyyən edilmişdir. Mülayim şəraitdə izobutenin tamamilə konversiyası və 91,4% selektivliklə trimer məhsula çevrilməsi göstərilmişdir [46].

Keçid metal kompleksləri və duzları əlavə edilmədən xarakterik Lüis turşuları ilə xloraluminat İM oliqomerləşmə katalizatoru kimi təsvir edilmişdir. Bunların xətti α-olefinlərin oliqomerləşməsi üçün yararlı olduğu göstərilmişdir [32,səh.5].

Yan zəncirli SO_3H funksional qruplu imidazolium kationlu ion mayeləri müxtəlif alkenlərin oliqomerləşməsində əla və təkrar istifadə oluna bilən katalizator kimi aşkar olunmuşdur. Silisium oksid səthinə çəkilmiş bu İM-dən izobutenin oliqomerləşməsində istifadə olunmuşdur. $[C_1(HSO_3)_4C_4im]^+$və ya $[C_4(HSO_3)_4C_4im]^+$kationlu Brensted turşu İM-nin silisium tərkibli gelə hopdurulması ilə katalizator hazırlanmışdır. İzobutenin oliqomerləşməsi 60°C-də aparılmışdır və C_8-karbohidrogenləri alınmışdır. Göstərilmişdir ki, temperaturun və reaksiya müddətinin uzadılması yüksək molekul kütləli oliqomerlərin əmələ gəlməsinə şərait yaradır. Bu halda C_{12}-C_{16}-oliqomerlərə nəzərən selektivlik 85%təşkil edir. Triflüormetanosulfonat anionları öz aktivliyini itirmədən bir neçə dəfə təkrar istifadə oluna bilir [32,səh.5],[43,səh.7],[47,48].

C. Feher və əməkdaşları öz təcrübələrində silisium oksidi səthinə çəkilmiş 1-(4-sulfobutil)-3-alkilimidazolium İM-dən istifadə edərək izobutenin oliqomerləşməsini həyata keçirmişlər [48,səh.10].

Səthə çəkilmiş xloralüminat tipli ion mayesi KPK xammalındakı izobutenin trimerləşməsində yoxlanılmışdır. İzobutan – buten alkilləşməsi şüşə və ya molekulyar ələyə hopdurulma ilə immobilizasiya olunmuş ion mayeləri iştirakında baş vermişdir. İzobutenin çevrilməsi və trimerlərin 91.4% selektivliklə alınması50^{o}Ctemperaturda müşahidə edilimişdir [32,səh.5][43,səh.7], [48,səh.8].

Wasserscheid P. və əməkdaşları zəif turş ion maye sisteminin iştirakında propilenin və 1-butenin xətti dimerləşməsini tərkibində Ni-saxlayan katalitik sistem iştirakında tədqiq etmişlər. Bunun üçün Ni-in heterotsiklik karben komponentindən istifadə olunmuşdur. Bu komponentlər toluol ilə müqayisədə İM-də çox aktivdirlər [30,səh.5],[32,səh.6],[59].

Tərkibində Ni-saxlayan kompleksin propilenin dimerləşməsində fosfinlər və İM ilə birgə istifadəsi ilə yüksək selektivliyin əldə olunması *Wilke* və əməkdaşları tərəfindən təsdiq edilmişdir [33,səh.5].

Etilalüminiumdixloridlə aktivləşdirilmiş volfram heksaxlorid və anilin tərkibli katalizator propenin dimerləşməsində iştifadə olunmuşdur və 2.3-dimetilbuten alınmışdır [33,səh.5].

Butil-metil-imidazolium hidroxlorid/$AlEtCl_2$/$AlCl_3$ kompleksi etilenin, propilenin, butilenin dimerləşməsində istifadə olunmuşdur [32,səh.5].

1,3-butadienin xətti dimerləşməsi [BMIM][BF_4], [BMIM][PF_6] ion mayelərinin və $PdCl_2$ iştirakı ilə aparılmışdır. Atom adosrbsiya analizinə uyğun olaraq Pd kompleksinin ion fazada paylanma qanunauyğunluqları öyrənilmişdir [32,səh.5].

1,3-butadienin oliqomerləşməsi [$Fe(NO)_2Cl]_2$/Zn və ya$AlEtCl_2$-in[BMIM][BF_4] ion mayesi ilə qarşılıqlı təsirindən alınan kompleks katalitik sistemlərin iştirakı ilə aparılmışdır [19,səh.3], [32,səh.5].

[Et_3NH]Cl/$FeCl_3$ və [$C_{13}H_{22}N$]Cl/$FeCl_3$ əsasında katalitik sistemlər diizobuten və triizobutenin alınmasında yüksək aktivlik və selektivlik göstərmişdir. Reaksiyanın aparılma temperaturu artdıqda izobutenin reaksiyaya daxil olma qabiliyyəti artmışdır. CuCl/[Et_3NH]Cl/$FeCl_3$=0.25/1/1.5 istifadə etdikdə diizobuten və triizobuten üzrə selektivlik 90% təşkil edir [32,səh.5],[49].

Tərkibində Ni-saxlayan kompleksin β-seolit uzərinə hopdurulması ilə İM mühitində butenin müxtəlif çevrilmələri aparılmışdır [32,səh.5].

AMEA akademik Y.H.Məmmədəliyev adına Neft-kimya prosesləri institutunda (AMEA NKPİ) KPK xammalından istifadə etməklə butadienin, propilenin və butilenin dimerləşməsi üzrə tədqiqatlar aparılmışdır. Burada piridin və imidazol əsaslı xloralüminat tipli İM mühitində ditiofosfat, ditiokarbamat və ksantogenat tipli Ni (II) ditiosistemlərindən katalizator kimi istifadə olunmuşdur. Butenlərin bu İM mühitində dimerləşməsi dimetilheksenlərdən, metilpentenlərdən və xətti oktenlərdən ibarət dimerlərin alınmasına gətirib çıxarmışdır. Katalizatorun məhsuldarlığı 150-250 kq.dimer/qr.Ni×saat təşkil edir. Halbuki, ənənəvi üzvi həlledicilərdə bu göstərici xeyli aşağı olur. Alınan məhsulun tərkibində izooktenlər (65.2% - dək) üstünlük təşkil edir [59,səh.8],[60].

S.Silvana öz əməkdaşları ilə birgə butadienin palladiumun xloridi, diasetalı və asetilasetonatı kimi komplekslərin katalitik təsiri ilə üçfenilfosfin iştirakında (katalitik sistemin komponentlərinin nisbəti 1:4), 70^{o}C-temperaturda ikifazalı dimerləşməsi barədə məlumat vermişlər. Burada [BMİM][BF_4,], [BMİM][PF_4] və [BMİM][triflat] tipli İM mühit rolunu oynayır. Oktatrien 1.3.6 üzrə selektivlik 100 % əldə olunur [30,səh.5],[32,səh.5],[59,səh.8].

İ.Qu əməkdaşları ilə xloralüminat tipli İM-nin alternativi kimi, olefinlərin oliqomerləşməsində sulfoturşu fraqmentli İM-dən istifadə etmişlər. Bu halda xloraluminat sistemlərində olduğu kimi, yüksək konversiya və selektivliklə şaxəli quruluşlu məhsullar alınmış, İM resirkulyasiya olunaraq təkrar istifadə edilmişdir [30,səh.5],[32,səh.5],[59,səh.8].

KPK xammal kimi istifadə etməklə İM mühitində efirləşmə prosesləri xüsusi əhəmiyyət kəsb edir. AMEA NKPİ-də bu sahədə tədqiqat işləri aparılmışdır [50-58]. KPK – nin həm efirləşmə, həm də oliqomerləşmə və polimerləşməsi üzrə ümumiləşmiş məlumatlar mənbələrdə verilmişdir [59,səh.8],[60,səh.9].

Beləliklə, tərtib olunmuş bu kiçik icmaldan aydın olur ki, KPK-nin ion maye mühitlərində müxtəlif çevrilmə proseslərinin aparılması üzrə tədqiqatlar geniş aktuallıq kəsb etməklə yanaşı mühüm elmi və praktiki əhəmiyyətə malikdir. Ion mayelərinin bir çox müsbət xassələri, o cümlədən geniş diapazonda maddələrlə birgə istifadə olunma imkanları onların KPK-nin müxtəlif çevrilmələri üçün mövcud olan katalitk sistemlərdə tətbiqi üçün əlverişli imkanlar yaradır və müvafiq sahədə geniş perspektivlər açır.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. V.M.Abbasov, H.C.Ibrahimov, S.R.Hacıyeva, S.Ə.Məmmədxanova, E.Ş. Abdullayev, F.Ə. Əmirov. Neft və qaz emalı proseslərinin kimyası və texnologiyası. Bakı, Elm, 2014.
2. М.И. Рустамов, В.М. Аббасов, Т.А. Мамедова, Н.Н. Пириев. Экологические проблемы земли и альтернативные источники знергии. Баку, Элм, 2008.
3. A.M.Məhərrəmov, M.R.Bayramov, İ.Q.Məmmədov, G.M.Bayramova. Karbohidrogen xammalının kimyəvi emalı. Bakı, Çaşıoğlu, 2012.
4. Məmmədov Ə.B., Qədirova S.İ., Məmmədov F.Q. *və dig.* Toksiki elementlərin insan orqanizminə mənfi təsiri, Pofessor A.Ə.Verdizadənin 100 illik yubileyinə həsr olunmuş "Üzvi reagentlər analitik kimyada" II Respublika konfransı, s. 87-89, Bakı 2014.
5. Sven Ivar Hommeltoft. Isobutane alkylation Recent developments and future perspectives, Applied Catalysis A: General, v. 221, i.1-2, p. 421-428, 2001.
6. Thomas Loften. Catalytic isomerization of light alkanes. PhD thesis, Norway, Trondheim, 119 p, 2004.
7. G. Baronetti, H. Thomas, C.A. Querini. Wells–Dawson heteropolyacid supported on silica:isobutane alkylation with C_4 olefins, Applied Catalysis A: General, v. 217, i. 1-2, p. 131-141, 2001.
8. http://www.cbi.com/images/uploads/technical_articles/Catalytic_Cracking_Process_-_PTQ_Q4_-.pdf
9. José M. Hidalgo, Michal Zbuzek, Radek Černý *et al.* Current uses and trends in catalytic isomerization, alkylation and etherification processes to improve gasoline quality, Cent. Eur. J. Chem., v.12, i. 2, p. 281, 2014.
10. W. Shen, Y. Gua, H. Xu, D. Dube, S. Kaliaguine. Alkylation of isobutane/1-butene on methyl-modified Nafion /SBA-15 materials, Applied Catalysis A: General , v.377, i. 1-2, p. 1-200, 2010.
11. Касимов А.А., Пириева Х.Б., *Джамалова С.А. и др.* Превращение C_3-C_4 углеводородов в жидкие продукты на модифицированном цеолитсодержащем катализаторе, Химическая технология, №5, с. 278-283, 2014.
12. Sami Matar, Lewis F. Hatch. Chemistry of petrochemical processes. Texas, Houston, (Second edition)Gulf Publishing Company, 2000.
13. Yamakawa *et al.* Method for producing diisobutylene using mixed C_4 fraction as raw material, US Patent 2014/0128652 A1, 2014.
14. EszterKriván, SzabinaTomasek, JenőHancsók. Application Possibilities of Zeolite Catalysts in Oligomerization of Light Olefins, Periodica Polytechnica Chemical Engineering , 58(2), p. 149-156, 2014.
15. Ширизданов Р.Р., Давлетшин А.Р., Смирнов В.К. *и др.*Исследование закономерностей процесса алкилирования изобутана олефинами на цеолитных катализаторах, Бутлеровские сообщения, Т. 29, №2, с. 35-43, 2012.
16. Ширизданов Р.Р., Николаев Е.А. Дизайн цеолитных катализаторов изобутана олефинами, Бутлеровские сообщения. Т.20, № 5, с. 74-81, 2010.

17. Dong Ho Park, Seong-Su Kim, Thomas J. Pinnavaia *et al.* Selective Isobutene Oligomerization by Mesoporous MSU-SBEACatalysts, J. Phys. Chem. C , 115(13), p. 5809–5816, 2011.
18. M.A.Fahim,T.A.Al- Sahhaf, A.S. Elkilani. Fundamentals of petroleum refining. UK, Printed and bound in Great Britain, 2010.
19. E.A. Yasakova, A.V. Sitdikova, A.F. Achmetov. Tendency of isomerization process development in Russia and foreign countries,Oil and Gas Business, 2010.
20. A. Galadima, J.A. Anderson, R.P.K. Solid acid catalysts in heterogeneous n-alkanes hydroisomerisation for increasing octane number of gasoline, Wells. Science World Journal, v. 4(3), p.15-22, 2009
21. Katarína Klepáčová, Dušan Mravec, Alexander Kaszonyi *et al.* Etherification of glycerol and ethylene glycol by isobutylene, Applied Catalysis A: General, v. 328, i. 1, p. 1–13, 2007.
22. K.F. Yee, A.R. Mohamed, S.H. Tan.A review on the evolution of ethyl *tert*-butyl ether (ETBE) and its future prospects, Renewable and Sustainable Energy Reviews, v. 22, p. 604-620, 2013.
23. Hee Jong Lee, Doyoung Seung, İgor N. Filimonov *et al.* Etherification of glycerol by isobutylene. Effects of the density of acidic sites in ion – exchange reisn on the distribution of products, Korean J. Chem. Eng., 28 (3), p. 756-762, 2011.
24. V.M. Abbasov, A.H. Əzizov, Ç.Q. Rəsulov *və dig.* C4 – fraksiyası əsasında səmərəli oksigenatların alınması texnologiyasının yaradılması, Akademik S.C.Mehdiyevin 100 illik yubileyinə həsr olunmuş Respublika Elmi-praktiki Konfransı, s. 86-89, Bakı 2014.
25. Johanna K. Preparation and characterization of some ionic liquids and their use in the dimerization reaction of 2-methylpropene , PhD thesis, Finland, Oulu, 143 p, 2007.
26. Till Cremer. Ionic Liquid Bulk and Interface Properties: Electronic Interaction, Molecular Orientation and Growth Characteristics. , PhD thesis, Nuremberg , 169 p, 2012.
27. Kokorin A. Ionic liquids: Applications and perspectives, InTech, 2011
28. H. Niedermeyer, Jason P. Hallett and T. Welton *et al.* Mixtures of ionic liquids , Cite this: Chem. Soc. Rev. **41**, p. 7780–7802, 2012.
29. http://www.slideshare.net/SSSeelig/green-solvents-and-ionic-liquids
30. Азизов А.Г., Асадов З.Г., Ахмедова Г.А. Ионные жидкости и их применение. Баку , Элм, 2010
31. Matthias Dötterl. Biphasic, Homogeneous and Heterogeneous Hydrocarbon Conversion Reactions with Novel Aluminum Chloride Based Catalyst Systems , PhD thesis, Bayreuth, 167 p, 2011.
32. http://www.intechopen.com/books/oligomerization-of-chemical-and-biological-compounds/the-use-of-ionic-liquids-in-the-oligomerization-of-alkenes
33. A.Forestiere, H. Olivier – Bourbigou and L. Saussine. Oligomerization of Monoolefins by Homogenous Cata lysts, Oil & Gas Science and Technology, v. 64, No. 6, p. 649-667, 2009.
34. http://www.ionicliquid.org/en/application/2014-04-24/26.html
35. http://www.ogj.com/articles/print/volume-104/issue-40/processing/ionic-liquid-alkylation-process-produces-high-quality-gasoline.html
36. http://www.ionicliquid.org/en/application/2014-04-24/24.html
37. Hye-Kyung C. Timken *et al.* Izomerization of butene in the Ionic liquid-catalyzed alkylation of light isoparaf fins and olefins , US Patent 2009/0192339 A1, 2009.
38. Ying Liu, Ruisheng Hu, Chunming Xu *et al.*Alkylation of isobutene with 2-butene using composite ionic liquid catalysts, Applied Catalysis A: General, 346, p.189–193, 2008.
39. Howard L., Hye-Kyung C. Timken. Production of low sulpur alkylate gasoline fuel , US Patent 7,988,747 B2, 2011.
40. Xing Xue Qi, Zhao GuoYing, Cui Jian Zhong. Chlorogallate(III) ionic liquids: Synthesis, acidity determination and their catalytic performances for isobutane alkylation , Science China Chem., v.55, No.8, p.1542–1547, 2012.
41. Jie Zhang, Chongpin Huang, Biaohua Chen *et al.* Alkylation of isobutane and butene using chloroaluminate-imidazolium ionic liquid as catalyst: Effect of organosulfur compound additive, Korean Journal of Chemical Engineering, v. 25, i. 5, p. 982-986, 2008.
42. Andreas Jess, Stephan Aschauer, Lisa Schilder *et al.*Liquid-Phase Isobutane/Butene-Alkylation Using Promoted Lewis-Acidic IL-Catalysts , Catalysis Letters, v.141, i.10, p.1405-1419, 2011.
43. Rita Skoda-Földes. The Use of Supported Acidic Ionic Liquids in Organic Synthesis, Molecules, 19(7), p. 8840-8884, 2014.

44. http://cdn.intechopen.com/pdfs-wm/13934.pdf
45. Haifang Li, Guoying Zhao, Huiting Liu *et al.* Triflic Acid Catalyzed Continuous Alkylation of Isobutane and Butene with Ionic Liquids As a Promoter , Annual Meeting AIChE "Catalysis and reaction engineering division", p. 1216-1217, 2012.
46. Shimin Liu, Jianpeng Shanga, Shiguo Zhanga *et al.* Highly efficient trimerization of isobutene over silica supported chloroaluminate ionic liquid using C4 feed, Catalysis Today, 200, p. 41–48, 2013.
47. C. Feher, R.Skoda – Földes, E. Krivan. Oliqomerization of isobutene in the presence of ionic liquid – based catalysts, Hungarian journal of industrial chemistry Veszprem, v. 39 (1), p. 63-66, 2011.
48. C. Fehér, E. Kriván, J. Kovács. Support effect on the catalytic activity and selectivity of SILP catalysts in isobutene trimerization, J. Mol. Catal. A Chem., *372*, p.51–57, 2013.
49. Yang S, Liu Z, Meng X *et al.* Oligomerization of isobutene catalyzed by iron(iii) chloride ionic liquids, Energy & Fuels, 23 (1),70–73, 2009.
50. Алиева Р.В., Азизов А.Г., Багирова Ш.Р. *və dig.* Новые (нано)металлосодержащие полимерные катализаторы для реакций этерификации, Neft kimyası və neftin emalı prosesləri, 15, № 4(60), s. 405-412, 2014.
51. Əliyeva R.V., Əzizov A.H., Bağırova Ş.R. *və dig.* Oksigenli yanacaq komponentlərinin alınması üçün yeni katalizatorlar, Azərb.Neft Təsərrüfatı, №12, s.38-43, 2008.
52. Əzizov A. H., Əliyeva R. V., Bağırova Ş. R. *və dig.* Alkil-üçlü alkil efirlərinin ion mayesi ilə selektiv təmizlənməsi üsulu , Azərbaycan Pat. WO 2010/040191 A2, 2010.
53. Əliyeva R.V., Əzizov A.H., Əmənullayeva G.İ. Pirolizin C4 fraksiyası və bioetanol əsasında etil-üçlü-butil efirinin istehsalı üçün yüksək səmərəliliyə malik yeni katalizator, H. Əliyevin 85 illik yubileyinə həsr olunmuş "Sumqayıt şəhərinin social – iqtisadi inkişafı: problem və perspektivlər" mövzusunda elmi Konfrans, s. 31-32, Sumqayıt 2008.
54. Rüstəmov M.İ., Əzizov A.H., Əliyeva R.V *və dig*. Üzvi birləşmələrin sintezi üçün katalizatorlar , Azərbaycan Pat. İ 20090084 Az., 2009.
55. Azizov A.H., AmanullayevaG.I., Aliyeva R.V. *et al.* The new esterification catalysts and the nature of reactions proceeding at esterification of synthetic naphthenic acids in their presence , Applied Catalysis A: General, v. 396 (1-2), p. 20-33, 2011.
56. Амануллаева Г.И., Бекташи Н.Р., Алиева Р.В. Исследование сложных алкиловых эфиров карбоновых кислот полученных в присуствии (нано)катализаторов полимерного типа методами жидкостной хроматографии, Нефтепереработка и Нефтехимия, № 10, с. 26-34, 2011.
57. Амануллаева Г.И., Азизов А.Г., Алиева Р.В. *и др.* Продукты э(с)терификации полученные в присуствии новых полимерных катализаторов сулфокатионитного типа, Химия и Технология Топлив и Масел, № 6, с.20-25, 2011.
58. Насиров Ф.А., Асланбейли А.М., НоврузоваФ.М., Азизов А.Г., Джанибеков Н.Ф. , Ионные жидкости в каталитических процессах превращения олефинов и диенов, Процессы нефтехимии и нефтепереработки, т. 47, №5, с. 339 – 348, 2007.
59. Ə.Ə. Xanmətov X.H. Əsgərova, R.V. Əliyeva, A.H. Əzizov. İon mayeləri olefinlərin oliqomerləşmə və polimerləşmə proseslərində, Neft kimyası və neft emalı prosesləri, 11,4 (44), s. 309-328, 2010.

INSTRUCTIONS FOR AUTHORS

1. "The Baku Engineering University Journal-Chemistry and Biology" accepts original unpublished articles and reviews in the research field of the author.
2. Articles are accepted in English.
3. File format should be compatible with **Microsoft Word** and must be sent to the electronic mail (**journal@beu.edu.az**) of the Journal. The submitted article should follow the following format:

- Article title, author's name and surname
- The name of workplace
- Mail address
- Abstract and key words

4. The title of the article should be in each of the three languages of the abstract and should be centred on the page and in bold capitals before each summary.
5. **The abstract** should be written in **9 point** type size, between **100** and **150** words. The abstract should be written in the language of the text and in two more languages given above. The abstracts of the article written in each of the three languages should correspond to one another. The keywords should be written in two more languages besides the language of the article and should be at least three words.
6. . **UDC** and **PACS** index should be used in the article.
7. The article must consist of the followings:

- Introduction
- Research method and research
- Discussion of research method and its results
- In case the reference is in Russian it must be given in the Latin alphabet with the original language shown in brackets.

8. **Figures, pictures, graphics and tables** must be of publishing quality and inside the text. Figures, pictures and graphics should be captioned underneath, tables should be captioned above.
9. **References** should be given in square brackets in the text and listed according to the order inside the text at the end of the article. In order to cite the same reference twice or more, the appropriate pages should be given while keeping the numerical order. For example: [7, p.15].

Information about each of the given references should be full, clear and accurate. The bibliographic description of the reference should be cited according to its type (monograph, textbook, scientific research paper and etc.) While citing to scientific research articles, materials of symposiums, conferences and other popular scientific events, the name of the article, lecture or paper should be given.

Samples:

a) ***Article:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomerrik and dimeric conapeetes of carnosine üith zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Book:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Conference paper:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information – Commu-nication Technologies in Science and education. II International Conference."*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

References should be in 9-point type size.

10. The margins sizes of the page: - Top 2.8 cm. bottom 2.8 cm. left 2.5 cm, right 2.5 cm. The article main text should be written in Palatino Linotype 11 point type size single-spaced. Paragraph spacing should be 6 point.
11. The maximum number of pages for an article should not exceed 15 pages
12. The decision to publish a given article is made through the following procedures:

- The article is sent to at least to experts.
- The article is sent back to the author to make amendments upon the recommendations of referees.
- After author makes amendments upon the recommendations of referees the article can be sent for the publication by the Editorial Board of the journal.

YAZI VƏ NƏŞR QAYDALARI

1. "Journal of Baku Engineering University-Kimya və Biologiya"- əvvəllər nəşr olunmamış orijinal əsərləri və müəllifin tədqiqat sahəsi üzrə yazılmış icmal məqalələri qəbul edir.
2. Məqalələr İngilis dilində qəbul edilir.
3. Yazılar **Microsoft Word** yazı proqramında, (**journal@beu.edu.az**) ünvanına göndərilməlidir. Göndərilən məqalələrdə aşağıdakılara nəzərə alınmalıdır:

- Məqalənin başlığı, müəllifin adı, soyadı,
- İş yeri,
- Elektron ünvanı,
- Xülasə və açar sözlər.

4. **Məqalədə başlıq hər xülasədən əvvəl** ortada, qara və böyük hərflə xülasələrin yazıldığı hər üç dildə olmalıdır.
5. **Xülasə** 100-150 söz aralığında olmaqla, 9 punto yazı tipi böyüklüyündə, məqalənin yazıldığı dildə və bundan əlavə yuxarıda göstərilən iki dildə olmalıdır. Məqalənin hər üç dildə yazılmış xülasəsi bir-birinin eyni olmalıdır. Açar sözlər uyğun xülasələrin sonunda onun yazıldığı dildə verilməklə ən azı üç sözdən ibarət olmalıdır.
6. Məqalədə UOT və PACS kodları göstərilməlidir.
7. Məqalə aşağıdakılardan ibarət olmalıdır:

- Giriş,
- Tədqiqat metodu
- Tədqiqat işinin müzakirəsi və onun nəticələri,
- İstinad ədəbiyyatı rus dilində olduğu halda orjinal dili mötərzə içərisində göstərməklə yalnız Latın əlifbası ilə verilməlidir.

8. **Şəkil**, **rəsm**, **grafik** və **cədvəllər** çapda düzgün, aydın çıxacaq vəziyyətdə və mətn içərisində olmalıdır. Şəkil, rəsm və grafiklərin yazıları onların altında yazılmalıdır. Cədvəllərdə başlıq cədvəlin üstündə yazılmalıdır.
9. **Mənbələr** mətn içərisində kvadrat mötərizə daxilində göstərilməklə məqalənin sonunda mətn daxilindəki sıra ilə düzülməlidir. Eyni mənbəyə iki və daha cox istinad edildikdə əvvəlki sıra sayı saxlanmaqla müvafiq səhifələr göstərilməlidir. Məsələn: [7,səh.15].

Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans, və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir.

Nümunələr:

a) ***Məqalə:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and electronic structure af monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitab:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles*. Fourth Edition, Prentice Hall, 2002

c) ***Konfrans:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ.. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Mənbələr 9 punto yazı tipi böyüklüyündə olmalıdır.

10. **Səhifə ölçüləri:** üstdən 2.8 sm, altdan 2.8 sm, soldan 2.5 sm və sağdan 2.5 sm olmalıdır. Mətn 11 punto yazı tipi böyüklüyündə, **Palatino Linotype** yazı tipi ilə və tək simvol aralığında yazılmalıdır. Paraqraflar arasında 6 punto yazı tipi aralığında məsafə olmalıdır.
11. Orijinal tədqiqat əsərlərinin tam mətni bir qayda olaraq 15 səhifədən artıq olmamalıdır.
12. Məqalənin nəşrə təqdimi aşağıdakı qaydada aparılır:

- Hər məqallə ən azı iki ekspertə göndərilir.
- Ekspertlərin tövsiyələrini nəzərə almaq üçün məqalə müəllifə göndərilir.
- Məqalə, ekspertlərin tənqidi qeydləri müəllif tərəfindən nəzərə alındıqdan sonra Jurnalın Redaksiya Heyəti tərəfindən çapa təqdim oluna bilər.

YAZIM KURALLARI

1. "Journal of Baku Engineering University- Kimya ve Bioloji" önceler yayımlanmamış orijinal çalışmaları ve yazarın kendi araştırma alanın-da yazılmış derleme makaleleri kabul etmektedir.
2. Makaleler İngilizce kabul edilir.
3. Makaleler Microsoft Word yazı programında, (**journal@beu.edu.az**) adresine gönderilmelidir. Gönderilen makalelerde şunlar dikkate alınmalıdır:

- Makalenin başlığı, yazarın adı, soyadı,
- İş yeri,
- E-posta adresi,
- Özet ve anahtar kelimeler.

4. **Özet** 100-150 kelime arasında olup 9 font büyüklüğünde, makalenin yazıldığı dilde ve yukarıda belirtilen iki dilde olmalıdır. Makalenin her üç dilde yazılmış özeti birbirinin aynı olmalıdır. Anahtar kelimeler uygun özetin sonunda onun yazıldığı dilde verilmekle en az üç sözcükten oluşmalıdır.
5. Makalede UOT ve PACS tipli kodlar gösterilmelidir.
6. Makale şunlardan oluşmalıdır:

- Giriş,
- Araştırma yöntemi
- Araştırma
- Tartışma ve sonuçlar,
- İstinat Edebiyatı Rusça olduğu halde orjinal dili parantez içerisinde göstermekle yalnız Latin alfabesi ile verilmelidir.

7. **Şekil, Resim, Grafik** ve **Tablolar** baskıda düzgün çıkacak nitelikte ve metin içerisinde olmalıdır. Şekil, Resim ve grafiklerin yazıları onların alt kısımda yer almalıdır. Tablolarda ise başlık, tablonun üst kısmında bulunmalıdır.
8. **Kullanılan kaynaklar**, metin dâhilinde köşeli parantez içerisinde numaralandırılmalı, aynı sırayla metin sonunda gösterilmelidir. Aynı kaynaklara tekrar başvurulduğunda sıra muhafaza edilmelidir. Örneğin: [7,seh.15].

Referans verilen her bir kaynağın künyesi tam ve kesin olmalıdır. Referans gösterilen kaynağın türü de eserin türüne (monografi, derslik, ilmî makale vs.) uygun olarak verilmelidir. İlmi makalelere, sempozyum, ve konferanslara müracaat ederken makalenin, bildirinin veya bildiri özetlerinin adı da gösterilmelidir.

Örnekler:

a) ***Makale:*** Demukhamedova S.D., Aliyeva İ.N., Godjayev N.M.. *Spatial and Electronic Structure of Monomerik and Dimeric Conapeetes of Carnosine Üith Zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Kitap:*** Christie ohn Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, p.386-398, 2002

c) ***Kongre:*** Sadychov F.S., Aydın C., Ahmedov A.İ. Appligation of Information-Communication Technologies in Science and education. II International Conference. "*Higher Twist Effects In Photon- Proton Collisions", Bakı, 01-03 Noyabr, 2007, ss 384-391*

Kaynakların büyüklüğü 9 punto olmalıdır.

9. **Sayfa ölçüleri**; üst: 2.8 cm, alt: 2.8 cm, sol: 2.5 cm, sağ: 2.5 cm şeklinde olmalıdır. Metin 11 punto büyüklükte **Palatino Linotype** fontu ile ve tek aralıkta yazılmalıdır. Paragraflar arasında 6 puntoluk yazı mesafesinde olmalıdır.
10. Orijinal araştırma eserlerinin tam metni 15 sayfadan fazla olmamalıdır.
11. Makaleler dergi editör kurulunun kararı ile yayımlanır. Editörler makaleyi düzeltme için yazara geri gönderilebilir.
12. Makalenin yayına sunuşu aşağıdaki şekilde yapılır:

- Her makale en az iki uzmana gönderilir.
- Uzmanların tavsiyelerini dikkate almak için makale yazara gönderilir.
- Makale, uzmanların eleştirel notları yazar tarafından dikkate alındıktan sonra Derginin Yayın Kurulu tarafından yayına sunulabilir.

13. Azerbaycan dışından gönderilen ve yayımlanacak olan makaleler için,(derginin kendilerine gonderilmesi zamani posta karşılığı) 30 ABD Doları veya karşılığı TL, T.C. Ziraat Bankası/Üsküdar-İstanbul 0403 0050 5917 No'lu hesaba yatırılmalı ve makbuzu üniversitemize fakslanmalıdır.

ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. «Journal of Baku Engineering University» - Химии и биологии публикует оригинальные, научные статьи из области исследования автора и ранее не опубликованные.
2. Статьи принимаются на английском языке.
3. Рукописи должны быть набраны согласно программы **Microsoft Word** и отправлены на электронный адрес **(journal@beu.edu.az)**. Отправляемые статьи должны учитывать следующие правила:

- Название статьи, имя и фамилия авторов
- Место работы
- Электронный адрес
- Аннотация и ключевые слова

4. **Заглавие статьи** пишется для каждой аннотации заглавными буквами, жирными буквами и располагается по центру. Заглавие и аннотации должны быть представлены на трех языках.
5. **Аннотация**, написанная на языке представленной статьи, должна содержать 100-150 слов, набранных шрифтом 9 punto. Кроме того, представляются аннотации на двух других выше указанных языках, перевод которых соответствует содержанию оригинала. Ключевые слова должны быть представлены после каждой аннотации на его языке и содержать не менее 3-х слов.
6. В статье должны быть указаны коды UOT и PACS.
7. Представленные статьи должны содержать:

- Введение
- Метод исследования
- Обсуждение результатов исследования и выводов.
- Если ссылаются на работу на русском языке, тогда оригинальный язык указывается в скобках, а ссылка дается только на латинском алфавите.

8. **Рисунки, картинки, графики и таблицы** должны быть четко выполнены и размещены внутри статьи. Подписи к рисункам размещаются под рисунком, картинкой или графиком. Название таблицы пишется над таблицей.
9. **Ссылки** на источники даются в тексте цифрой в квадратных скобках и располагаются в конце статьи в порядке цитирования в тексте. Если на один и тот же источник ссылаются два и более раз, необходимо указать соответствующую страницу, сохраняя порядковый номер цитирования. Например: [7, стр.15]. Библиографическое описание ссылаемой литературы должно быть проведено с учетом типа источника (монография, учебник, научная статья и др.). При ссылке на научную статью, материалы симпозиума, конференции или других значимых научных мероприятий должны быть указаны название статьи, доклада или тезиса.

Например:

a) ***Статья:*** Demukhamedova S.D., Aliyeva I.N., Godjayev N.M. *Spatial and electronic structure of monomeric and dimeric complexes of carnosine with zinc,* Journal of Structural Chemistry, Vol.51, No.5, p.824-832, 2010

b) ***Книга:*** Christie on Geankoplis. *Transport Processes and Separation Process Principles.* Fourth Edition, Prentice Hall, 2002

c) ***Конференция:*** Sadychov F.S, Fydin C,Ahmedov A.I. Appligation of Information-Communication Nechnologies in Science and education. II International Conference. *"Higher Twist Effects In Photon-Proton Collision",* Bakı,01-03 Noyabr, 2007, ss.384-391

Список цитированной литературы набирается шрифтом 9 punto.

10. **Размеры страницы:** сверху 2.8 см, снизу 2.8 см, слева 2.5 и справа 2.5. Текст печатается шрифтом **Palatino Linotype**, размер шрифта 11 punto, интервал-одинарный. Параграфы должны быть разделены расстоянием, соответствующим интервалу 6 punto.
11. Полный объем оригинальной статьи, как правило, не должен превышать 15 страниц.
12. Представление статьи к печати производится в ниже указанном порядке:

- Каждая статья посылается не менее двум экспертам.
- Статья посылается автору для учета замечаний экспертов.
- Статья, после того, как автор учел замечания экспертов, редакционной коллегией журнала может быть рекомендована к печати.